QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 116 (6316) 3 iyul 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İlham Əliyev: "Bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var"

Bax 2



## Uğura aparan yolun təməlində böyük sevgi dayanır



*"Düşünürəm ki, nəyəsə inanırsan və nəyisə çox arzulayırsansa, ona nail olacaqsan". Bu sözlərin müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevadır. İllərdir ki, fəaliyyəti ilə gənclərə, yaşıdlarına örnək olan Leyla xanım öz düşüncəsi, intellektual səviyyəsi ilə nümunəyə çevrilərək, məsuliyyət...*

Bax3

## Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Amerikanın nüfuzlu nəşri vasitəsilə Ermənistanı sülhə çağırıb

Amerikada çıxan "The Washington Times" nəşrində Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Ermənistan ilə Azərbaycan arasında əməkdaşlıq və sülh haqqında" sərlövhəli məqaləsi dərc olunub...

Bax 2



## Əhməd İsmayılov: "Azərbaycanda Vahid Media Reyestri yaradılacaq"



Dünən Medianın İnkişaf Agentliyinin (MEDİA) rəhbəri Əhməd İsmayılovun iştirakı ilə mətbuat konfransı keçirilib. SIA-nın məlumatına görə, mətbuat konfransında MEDİA-nın rəhbəri jurnalistləri maraqlandıran sualları cavablandırırb. Əsas müzakirə obyekti media subyektləri ilə bağlı keçirilən müsabiqənin nəticələri barədə olub...

Bax 4




## Azərbaycanda pandemiya nə vaxt başa çatacaq?

"Bu gün Azərbaycanda vaksinasiya prosesi sürətlə davam edir. Hətta günlük 80 mini keçən peyvəd vurulması imkanımız var və hazırda bunu edirik"...

Bax 12

## Azərbaycan polisi 103 il şərəfli yolda

*103 ildir ki, şərəfli yol keçən Azərbaycan polisi iyulun 2-də peşə bayramlarını qeyd edir. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət ...*

Bax 8




## Ələt Azad İqtisadi Zonası Azərbaycana hansı dividentlər vəd edir?

Xəbər verdiyimiz kimi, iyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib...

Bax 15



## Yayda bu qidalar koronavirusdan qoruyur - 10 "qızıl" qayda




### Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində daha bir iclas keçirilib



Bax 5

### Dövlətlə birlikdə güclənmək və güclü olmaq konsepsiyası




Bax 7

### DSX-nin "Süvarilər" dəstəsinin təqdimatında Qarabağ atları "Royal Windsor Horse Show" adlı tədbirdə nümayiş etdirilib



Bax 16

# İlham Əliyev: “Bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var”

“İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 110-cu kitabı çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, çoxcildliyin bu kitabındakı materiallar 2021-ci ilin fevral-mart aylarını əhatə edir. Həmin dövr ölkəmizin həyatında bir çox önəmli hadisələrlə zəngin olub. Bunlardan biri də Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransıdır. Xocalı soyqırımının ildönümündə dörd dildə dörd saat davam etmiş mətbuat konfransında dövlətimizin başçısı Ermənistana və onun himayədarlarına aydın və birmənalı mesajlar verib, Azərbaycanın regionda və beynəlxalq aləmdə mövqeyini bəyan edib. Həmçinin Vətən müharibəsində qazanılmış Zəfərdə Azərbaycanda yaşayan müxtəlif xalqların rolunu yüksək dəyərləndirərək deyib: “Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Yəni, bütün xalqların nümayəndələri bir bayraq altında bir yumruq kimi birləşdi və bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var”.




Yeni kitabda ölkəmizdə və dünyada geniş rezonans doğuran mətbuat konfransının materialları, habelə Prezident İlham Əliyevin “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilmiş 7-ci iclasında, İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısında çıxışlarının mətnləri də yer alıb.

Oxucu nəşrdə dövlətimizin başçısının işğaldan azad edilmiş Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri, Zəngilan rayonunun Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində çinarəkmə mərasimi haqqında informasiyalarla, Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra etdiyi çıxışın mətni ilə tanış ola bilər. Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edən Prezident deyib: “Biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq”. Bu sözlər işğaldan azad edilmiş ərazilərdə yaşayacaq insanların rifahı naminə həyata keçirilən və keçiriləcək tədbirlərin geniş miqyasından bir daha xəbər verir.

Çoxcildliyin 110-cu kitabında Prezident İlham Əliyevin ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayerlə, İtaliyanın “Maire Tecnimont Group” şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyəti, “Signify” şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşləri haqqında informasiyalar toplanıb. Yeni nəşrə dövlətimizin başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinlə, Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyəti, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə, Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə Dövlət naziri xanım Vendi Mortonla, Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşlərinə dair materiallar da daxil olunub.

Mart ayında ölkə həyatında yaşanan siyasi hadisələr sırasında Yeni Azərbaycan Partiyasının VII qurultayı da önəmli yer tutur. Çoxcildliyin yeni nəşrində qurultayın materialları və partiyanın sədri İlham Əliyevin dərin məzmunlu nitqləri ilə tanış olmaq mümkündür.

Nəşrdə dövlətimizin başçısının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılış mərasimində iştirakı barədə informasiya, Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim edilməsi mərasimində çıxışının mətni də verilib.

“Azərnəşr” tərəfindən buraxılan 110-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Rəsmi xronika

**Prezident İlham Əliyev İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.**

* * *

**Prezident İlham Əliyev Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında Sərəncam imzalayıb.**

# Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Amerikanın nüfuzlu nəşri vasitəsilə Ermənistanı sülhə çağırıb

***Amerikada çıxan “The Washington Times” nəşrində Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin “Ermənistan ilə Azərbaycan arasında əməkdaşlıq və sülh haqqında” sərlövhəli məqaləsi dərc olunub.***

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi 1970-ci illərdə SSRİ və ABŞ arasında soyuq müharibənin qızğın dövründə gərginliyin azaldılması ilə paralel apararaq, Ermənistanla Azərbaycan arasında qarşılıqlı xoş məramlı aktlar barədə söhbət açıb. Bu aktlar həbs edilən 15 erməni diversant ilə minalanmış sahələrin kartının dəyişdirilməsində ifadə olunub. Hikmət Hacıyev qeyd edib ki, Ermənistanda parlament seçkilərindən sonra iki dövlət arasında etimada əsaslanan münasibətlərin qurulmasına doğru növbəti addımın atılması vaxtı çatıb. Bu addım nəticəsində diplomatik irəliləyiş əldə edilə və qarşıdurma əməkdaşlığa çevrilə bilər.

Ermənistan tərəfinin verdiyi xəritədə 97 min minanın yeri göstərilir. Lakin bu, minalanmış yeddi rayondan yalnız biridir. Bununla yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyan özü bunun ölkənin əlində olan xəritələr paketinin yalnız bir hissəsi olduğunu etiraf edib. Hər halda hətta bir xəritənin verilməsi belə Bakının bununla bağlı müraciətinin Yerevan tərəfindən “gündəliyin feyk xəbəri” adlandırıldığı vaxtlarla müqayisədə irəliləyişdir.

Məqalədə qeyd edilir ki, minaların sayının ümumilikdə nə qədər olması məlum deyil. Qarabağ dünyanın ən çox minalanmış regionlarından biri hesab edilir. 1,5 milyard kvadratmetrdən çox minalanmış ərazi Cənubi Koreya ilə Koreya Xalq Demokratik Respublikası arasındakı hərbsizləşdirilmiş zonada yerləşən təmas xəttindən çoxdur. Minalar böyük təhlükə mənbəyidir. Müəllif xatırladır ki, müharibə başa çatandan sonra təxminən 140 nəfər minaya düşüb, o cümlədən iki jurnalist mina qurbanı olub. İndi sülhə maneəni məhz bu minalar törədir. Karl fon Klauzovitsin məşhur kəlamını yada salsaq, minalar müharibənin başqa vasitələrlə davamıdır.

Eyni zamanda, Yerevan üçün sülhə başlıca manea saxlanılmış şəxslər - Ermənistan vətəndaşlarıdır. Müəllif vurğulayır ki, onlar bəzi KİV-lərin düzgün olmayaraq adlandırdığı kimi hərbi əsir deyillər, bütün hərbi əsirlər artıq dəyişdirilib. Minalanmış sahələrin xəritələrinin verilməsi iki dövlət arasında gərginliyin azaldılmasına və etimada əsaslanan münasibətlərin qurulmasına daha bir təkan ola bilər.

Azərbaycan Prezidentinin köməkçisi, həmçinin Zəngəzur dəhlizi məsələsinə də toxunub. O əmindir ki, bu, hər iki tərəfə sərfəlidir. Dəhliz Naxçıvan eksklavının təcrid olunmuş vəziyyətinə son qoyacaq, Ermənistan isə Rusiya ilə yerüstü dəmir yolu xətti əldə edəcək. ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin - Fransa, ABŞ və Rusiyanın yeni roluna diqqəti cəlb edən müəllif yazır ki, bu qrup iki dövlət arasında etimada əsaslanan münasibətlərin qurulması üçün səylərini davam etdirə bilər.



Sonda Hikmət Hacıyev qeyd edir ki, bu gün xalqlarımızın sülhü və sabitliyi bərqərar etmək şansı var. Bizim üçün bir-birimizi daha yaxşı tanımağa və bundan yararlanmağa fürsət yaranıb. Bir-birini qarşılıqlı tanımanın son nəticəsi sülh müqaviləsi ola bilər. Lakin sülh əvəzinə revanşizmə meyl edənlər regionu yeni fəlakətə gətirib çıxara bilərlər. Hikmət Hacıyev məqaləsini bu sözlərlə yekunlaşdırır: “Azərbaycanda həmişə belə anlayış mövcud olub ki, əgər Ermənistan həqiqətən sülhün bərqərar olunmasında maraqlıdırsa, o halda regional layihələrdən bəhrələnə bilər. Buna görə də gəlin, Cənubi Qafqazı sülh regionuna çevirək”.

# Uğura aparan yolun təməlində böyük sevgi dayanır

## *Leyla Əliyeva: "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub"*



***"Düşünürəm ki, nəyəsə inanırsan və nəyisə çox arzulayırsansa, ona nail olacaqsan". Bu sözlərin müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevadır. İllərdir ki, fəaliyyəti ilə gənclərə, yaşıdlarına örnək olan Leyla xanım öz düşüncəsi, intellektual səviyyəsi ilə nümunəyə çevrilərək, məsuliyyət anlayışını hər addımında unutmur. Cavabdehlik məsuliyyəti: ata, ana, vətən qarşısında olan müqəddəs borcun yerinə yetirilməsi, reallaşması. Təbii ki, müqəddəs borc və vəzifələrin yerinə yetirilməsində ailədə, cəmiyyətdə insanın necə formalaşması önəmlidir. Çox gənc yaşından böyük məsuliyyətləri üzərinə götürmək cəsarət və potensail, istedad tələb edir ki, Leyla xanım bu keyfiyyətləri özündə hiss etmiş, görmüşdü. Axı kiçik yaşlarından doğulduğun mühit səni gələcəyə doğru addımında önəmli faktordur.***

Ulu Öndər Heydər Əliyev kimi müdrik Şəxsiyyətin ailəsində böyüyən və bu nəslin təmsilçisi olan Leyla xanım öz əməli fəaliyyəti ilə seçilməli idi. Prinsipial mövqeyini ortaya qoymalı idi. Müsahibələrinin birində ona verilən "Heydər Əliyev həyatınızda sizə ən çox kömək olan hansı məsləhəti vermişdi" sualına "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub", deyə cavab vermişdi. "Hətta Onunla beş dəqiqə söhbət edənlər belə Ondan çox qiymətli dərs ala bilirdilər", deyən Leyla xanım bildirib ki, Onu hər gün görürdüm: "Bu, heç nə ilə müqayisə olunmayacaq böyük təcrübə idi. Ən təəccüblüsü də bu idi. O, heç vaxt sənin nə etməli olduğunu demirdi, istəyirdi ki, sən həmişə özün qərar qəbul edəsən".

Əlbəttə ki, bu fikirlər bir daha göstərir ki, Leyla xanımın həyat məktəbinin təməli doğulduğu mühitdə qoyulub. Bu mühit onu gələcəyə doğru inamla aparıb. Təbii ki, Leyla xanımın yetişdiyi mühit qısa bir zamanda onun uğurlar qazanmasına səbəb oldu. Onun tərcümeyi-halına nəzər salsaq bunun şahidi olaraq. Belə ki, 3 iyul 1984-cü ildə anadan olan Leyla Əliyeva orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006-2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb. Tələbəlik illərindən başlayaraq Leyla xanım Əliyeva ictimai fəaliyyət ilə məşğul olub. 10 may 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Elə həmin il dekabrın 19-da Moskvada "Baku" jurnalını təsis edib. 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarıdır. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru vəzifəsində çalışır. 2009-cu il aprelin 18-də Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsinə seçilib. 2010-ci ilə qədər MQİMO-da Azərbaycanlılar Klubunun sədri olub. 2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti vəzifəsini icra edir. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya nümayəndəliyinin rəhbəri, "Baku" jurnalının təsisçisi, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı, Islam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri olan Leyla Əliyeva. Həyata keçirdiyi layihələrin hər birində böyük ideyalar dayanır.

### "İNSAN VƏ TƏBİƏT MALİK OLDUĞUMUZ ƏN DƏYƏRLİ NEMƏTLƏRDİR"

Leyla Əliyeva IDEA İctimai Birliyinin sədri olaraq təbiətin qorunması istiqamətində bir sıra layihələrə imza atıb. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır. Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik.

"Hər bir insan təbiəti sevməli və ona qayğı göstərməlidir", - deyir Leyla Əliyeva. Təbiəti sevməməyin mümkün olmadığı qənaətindədir: "İnsan və təbiət malik olduğumuz ən dəyərli nemətlərdir". Belə prinsiplə ekolji mühitin qorunmasına çalışaraq kifayət qədər layihələrin müəllifinə çevrilib. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "Böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. "Biz məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların yox olmasının qarşısını almağa çalışırıq", deyərək ovçuluğun bütün dünyada mövcudluğunu dilə gətirib: "Bu, qəbul ediləndir və bəzən hətta faydalıdır. Lakin adları "Qırmızı kitab"a daxil olan heyvanlar öldürülməməlidir, onlar qorunmalıdır. Bunun üçün biz fəal təbliğat işi aparırıq, izah edirik, danışırıq. Ən başlıcası bu haqda düşünməkdir. Ceyranların reproduksiyası ilə bağlı bizim layihələrimiz olub. Mənim üçün ən vacib layihələrdən biri də Qafqaz bəbirinin qorunub saxlanmasıdır". Bu gün Leyla Əliyevanın tapşırığı ilə IDEA işğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyətin yenidən canlandırılması istiqamətində də işlər görəcək.

### HƏR BİR İŞİN ƏSASINDA SƏMİMİ, SAF VƏ İNSANİ MÜNASİBƏTLƏR DAYANIR

Rusiyanın azərbaycanlı gənclərinin təşkilatlanmasında Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) xüsusi rolu var. RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edir və Azərbaycanın məxsus olduğu dəyərlər Rusiyada nümayiş olunur. Rusiyanın bir sıra şəhərlərində azərbaycanlı gənclər klubları fəaliyyətdədir. Belə ki, Moskvada, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda yerləşən təşkilatlar gənclərin həyatının bütün istiqamətlərini əhatə edir. Təhsil, idmanla yanaşı, RAGT sağlamlığa və sağlam həyat tərzinə də böyük diqqət ayırır. "Qanının milləti yoxdur" aksiyası çərçivəsində qurum könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan veriblər. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyasının təşkilatçısıdır. Gördüyü işlər və həyata keçirilən layihələr nəticəsində RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı yüksək qiymətləndirilir. Qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə müsbət töhfələrini verir. Hər bir işin əsasında ən əsası səmimi, saf və insani münasibətlər dayanır. Leyla xanım müsahibələrinin birində onun bu qədər fəal, uğurlu təşkilat olacağını gözləmədiyini bildirib: "RAGT Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatıdır. Amma bu, eyni zamanda həm də sevgi - xalqların, insanların qarşılıqlı sevgisi deməkdir. Həqiqətən də, azərbaycanlı gəncləri bir araya gətirmək, onların Rusiya cəmiyyətinə inteqrasiyasına və Azərbaycan mədəniyyətini Rusiyada layiqincə təmsil etməsinə kömək göstərmək mümkün oldu".

### AZƏRBAYCAN HƏQİQƏTLƏRİNİ DÜNYAYA ÇATDIRILMASINDA BİR VASİTƏÇİ VƏ ÖTÜRÜCÜ OLDU

Azərbaycanın milli-mənəvi dəyərlərini təbliğ etmək, Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini, xalqımızın qəhrəmanlıq tarixini, onun coğrafi ərazisini tanıtmaq baxımından həyata keçirdiyi layihələr həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücü oldu. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünya ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirləri reallaşdırdı. Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" rep üslubunda yazılmış mahnı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Bu gün onun təşəbbüsü ilə Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyət göstərir. Saytda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində mülki əhaliyə qarşı törətdiyi soyqırımına aid məlumatlar, foto və videomateriallar yerləşdirilib. "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülmüş işlər nəticəsində dünyanın bir sıra ölkələrində və ABŞ-ın ştatlarında Xocalı qətliamı soyqırımı kimi tanınıb. Eyni zamanda, faciə qurbanlarının xatirəsinə abidələr ucaldılıb və müxtəlif tədbirlər keçirilib.

### ƏMƏLİ FƏALİYYƏT VƏ ONA VERİLƏN QİYMƏT

Leyla xanımın gördüyü böyük işlər diqqətdən kənarda qalmayıb. 2011-ci ilin iyulunda Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub. 2011-ci ilin noyabrında Nyu-Yorkda humanitar aksiyalarda fəal iştirakına görə, "Key to life" fəxri mükafatına layiq görülüb. 22 noyabr 2011-ci ildə BMT-nin sertifikatını və xüsusi vəsiqəsini alıb. 2013-cü ildə Ətraf Mühitin Mühafizəsi VII Beynəlxalq Layihə Olimpiadası (İNEPO-Avrasiya) Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı ilə mükafatlandırılıb. Həmin il Leyla Əliyeva III dərəcəli "Knyaginya Olqa" ordeni və "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı ilə təltif olunub. 2015-ci ilin mayında Leyla Əliyeva aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərinin yaradılması kimi məqsədlərə nail olunmasına verdiyi töhfəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı Səfiri adına layiq görülüb. 2015-ci il oktyabrın 20-də Rusiya Federasiyasının "Puşkin" medalı ilə təltif edilib. 2016-cı il sentyabrın 28-də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının qərarı ilə bu ali məktəbin "Xidmətlərə görə" medalına layiq görülüb. Bu mükafatların sayı kifayət qədərdir. Hər biri də əməli fəaliyyətin qiymətidir.

### "MƏN ÖVLADLARIMA VALİDEYNLƏRİMİN MƏNƏ VERDİKLƏRİNİ VERMƏK İSTƏYİRƏM"

Gördüyü işlərdən usanmır, amma ailəsinə də diqqət ayırmağı arxa plana salmır. "Mənim üçün övladlarım və ailəm hər şeydən vacibdir", deyir Leyla Əliyeva. Aldığı dərsi öz övladlarına ötürməyi diqqətdə saxlayır: "Mən övladlarıma valideynlərimin mənə verdiklərini vermək istəyirəm. İstəyirəm ki, onlar daim məhəbbət və qayğı içində böyüsünlər. Bu, ən vacibidir. Dünyanın müxtəlif ölkələrinə saysız-hesabsız səfərlər etməli oluram. Bu zaman övladlarımı da özümlə apararam. Ona görə də darıxmıram. Vaxtı isə tapmaq mümkündür. Əsas odur ki, hamı sağlam olsun".

Müsahibələrin birində Ona ünvanlanan "Uşaqlıqdan öyrədilməsi zəruri olan tərbiyənin və təhsilin əsasları hansılardır?", sualına gəlincə isə Leyla Əliyeva belə cavablandırıb: "Mənim üçün olduqca vacibdir ki, uşaqlar valideynlərinə ilk növbədə hörmət etsinlər, onlardan qorxmasınlar. Buna görə də uşaqlar nəyisə düz etməyəndə onlara izah etməyə çalışıram. Həmişə seçim ixtiyarı verirəm. Hesab edirəm ki, onlara kifayət qədər çox azadlıq vermək lazımdır. Fikrimcə, anadan olandan insana doğrunu və yanlışı anlama qabiliyyəti Allah tərəfindən verilib. Bəzən valideynlər uşaqları qorumaq üçün onları həddən artıq himayə edirlər, məhdudiyyətlər və qadağalar qoyurlar. Mən onlara daha çox azadlıq verməyə çalışıram, xüsusən də onlar oğlan olduqları üçün. Qoy onlar müstəqil, sərbəst və güclü olsunlar".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Əhməd İsmayılov: “Azərbaycanda Vahid Media Reyestri yaradılacaq”

***Dünən Medianın İnkişaf Agentliyinin (MEDİA) rəhbəri Əhməd İsmayılovun iştirakı ilə mətbuat konfransı keçirilib. SİA-nın məlumatına görə, mətbuat konfransında MEDİA-nın rəhbəri jurnalistləri maraqlandıran sualları cavablandırırb. Əsas müzakirə obyekti media subyektləri ilə bağlı keçirilən müsabiqənin nəticələri barədə olub.***



Tədbirdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) rəhbərliyi çap mediası və onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin qaliblərini təbrik edib. Media subyektlərinin, jurnalistlərin, bu sahədə fəaliyyət göstərən ekspertlərin müsabiqənin keçirilməsi ilə bağlı təklifləri nəzərə alınıb, müsabiqə yalnız çap mediası deyil, eyni zamanda onlayn media subyektlərini də əhatə edib, ilk dəfə olaraq idman məzmunlu xəbərlər istehsal edən veb-saytlara da layihədə iştirak hüququ tanınıb.

Agentlik müsabiqənin qiymətləndirməsində obyektivlik prinsiplərini və müasir standartları əsas götürüb. Əmək şəraiti və redaksiya heyətinin minimum tələblərə cavab verməsi, onlayn media subyektlərinin gün ərzində ən azı 20 (iyirmi) kütləvi informasiya dərc etməsi əsas götürülüb, çap mediası subyektlərinin tiraj və yayıma dair normalar müəyyənləşdirilib.

Qiymətləndirmə zamanı media subyektlərinin oxunaqlılıq dərəcəsini müəyyən edən ümumi səhifə baxışı sıralaması, materialların orijinallığı, informativliyi, analitik xarakteri, mövzuların jurnalistikanın ümumi prinsiplərinə uyğunluğu, mətnlərin üslubi keyfiyyətləri, dilin norma və qaydalarına əməl olunması, saxta və aldadıcı başlıqlı xəbərlərin, plagiat materialların həcmi, dizaynın müasir standartlara uyğunluğu, sosial şəbəkə hesablarının aktivliyi kimi meyarlar nəzərə alınıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi məqsədilə bütün media subyektlərinə bərabər şərait yaradıb, layihə jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılmasına, peşə etikası qaydalarına riayət olunması kimi təməl prinsiplərə əməl edilməsini hədəfləyib.

Onlayn media subyektləri üçün təşkil edilmiş müsabiqəyə ümumilikdə 96 veb-sayt müraciət edib, mövcud maddi imkanlar nəzərə alınmaqla müsabiqə qaydalarına cavab verən 39 veb-sayt qalib elan olunub. Son zamanlar media subyektlərinin öz fəaliyyətini qanunvericiliyə uyğun təkmilləşdirməsi, operativlik, şəffaflıq və digər mühüm meyarlara uyğunlaşdırması istiqamətində ciddi səylər göstərməsi təqdirəlayiq hal kimi qiymətləndirilir və gələcəkdə də mediamızda bu meyllərin davamlılığının təşviqi üçün zəriri addımlar atılacaqdır.

Müsabiqələr gələcəkdə də davam etdiriləcək, növbəti aylar ərzində fəaliyyətini müəyyən edilmiş qaydalara uyğunlaşdıran veb-saytlar yenidən həmin müsabiqələrdə iştirak edə biləcək, qiymətləndirmə meyarlarına cavab verdikdə və daha yüksək göstəricilər nümayiş etdirdikdə isə qalib olmaq imkanı qazanacaqlar. Medianın İnkişafı Agentliyi sağlam media mühitinin formalaşmasına verdikləri töhfə üçün dəyərli media subyektlərinə minnətdarlığını bildirib.

Qeyd edilib ki, Azərbaycanda Vahid Media Reyestri yaradılacaq, MEDİA tərəfindən jurnalistlərə vəsiqə veriləcək. Bu vəsiqələrlə bağlı tələblər müəyyən olunacaq və vəsiqələr könüllülük əsasında təqdim ediləcək. Əhməd İsmayılov bildirib ki, MEDİA tərəfindən vəsiqə müəyyənləşdirilən tələblərə cavab verən jurnalistlərə veriləcək. Medianın İnkişafı Agentliyi tərəfindən həyata keçirilən layihələrə toxunan icraçı direktor deyib ki, bunlar dəstək layihələridir, heç də hər hansı media orqanının bütün xərclərini qarşılaya bilməz. Bu, sadəcə olaraq, çatışmayan maliyyə resursunu qarşılamaq üçündür.

“Maliyyə dəstəyindən əlavə, kadr potensialının inkişaf etdirilməsi üçün layihələrin həyata keçirilməsi barədə də təkliflər var. Biz bu istiqamətdə də tədbirlər görməkdəyik. Bu layihələr gələcəkdə həyata keçirəcəyimiz layihələrin cüzi hissəsidir”, - deyə Əhməd İsmayılov qeyd edib.

Media subyektlərinə maliyyə yardımlarının ayrılması növbəti 6 ay üçün nəzərdə tutulub. Qaydalara əsasən, 6 ay ərzində müəyyən olunmuş media subyektlərinin MEDİA tərəfindən maliyyələşdirilməsi həyata keçiriləcək.

Bu maliyyə dəstəyinin məqsədyönlü olduğunu bildirən Ə.İsmayılov qeyd edib: “Əsas məqsəd həmin media subyektlərinin iqtisadi müstəqilliyinin təmin olunmasıdır. Müsabiqənin qalibləri ilə görüşlər keçiriləcək və onlarla müqavilə imzalandıqdan sonra maliyyələşmə həyata keçiriləcək. Aparılacaq monitorinqlər zamanı yardımın təyinatı üzrə istifadə olunmadığı müəyyən edilərsə, o zaman maliyyə yardımı dayandırılacaq. Bundan əvvəl Azərbaycanda onlayn media subyektləri üçün müsabiqələr keçirilməyib. Lakin indiki şərtlər əvvəlkindən tamamilə fərqlidir, yəni, bu müsabiqələr əvvəlki ənənənin davamı deyil. Biz həm qəzetin dizaynını, həm də məzmununu dəyərləndirmişik.”

O bildirib: “Köhnə ənənələrdən ciddi fərqlərdən biri də odur ki, redaksiyalara göstərilən maliyyə yardımlarının xərc istiqamətləri artıq müəyyən edilib. Həmin tələblərə riayət edilməsinə MEDİA tərəfindən xüsusi nəzarət olunacaq. Bu müsabiqələr heç də köhnə ənənələrin davamı kimi qiymətləndirilə bilməz. Çap və onlayn media subyektlərinin müsabiqələrinin nəticələri artıq elan olunub. Müsabiqənin keçirilməsində əsas məqsəd həmin media subyektlərinin inkişafına nail olmaqdır. Belə layihələr davamlı olacaq. Müxtəlif media subyektləri ilə görüşlər keçirilib. Bu görüşlər müsabiqələrdən əvvəl təşkil olunub”, - deyə Əhməd İsmayılov əlavə edib.”

## Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının XII hesabat konfransı keçirilib













**İyulun 2-də Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının videoformatda XII hesabat konfransı keçirilib. Əvvəlcə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz** xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiqləndikdən sonra hesabat məruzəsi ilə çıxış edən YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov bildirib ki, rayon təşkilatı öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, partiya rəhbərliyinin tapşırıq və tövsiyələrinə uyğun qurur, bu müddət ərzində partiyaya qəbul, təsdiq olunmuş iş planına əsasən tədbirlərin keçirilməsi, nizam-intizamın gücləndirilməsi və rayonun ictimai-siyasi həyatında fəal iştirak istiqamətində uğurlu nəticələr əldə edib: “YAP Xəzər rayon təşkilatının 81 ilk partiya təşkilatında 6934 partiya üzvü fəaliyyət göstərir. Hesabat dövrü ərzində 696 nəfər partiya sıralarına qəbul olunub. Onlardan 485-i qadın, 363-i isə gənclərdir. Ümumilikdə, 6934 nəfər təşkilat üzvünün 59,1 faizini qadınlar, 36,4 faizini gənclər təşkil edir”.

Diqqəti tarixi Zəfərimizə yönəldən N.Əhmədov vurğulayıb ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız Qələbə hər birimizdə böyük qürur hissi yaratmaqla yanaşı, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq və bərpa işlərində fəal iştiraka səsləyir. YAP Xəzər rayon təşkilatı hər zaman olduğu kimi, bu gün də partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşib gələcəyə böyük addımlarla irəliləyir.



Sonra Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri Həzərxan Əbilovun hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP Xəzər rayon təşkilatı sədrinin müavini, Milli Məclisin deputatı Rauf Əliyev, Milli Məclisin deputatı Soltan Məmmədov, YAP Xəzər rayon təşkilatı ilk partiya təşkilatı sədrləri Zeynəb Əliyeva, Mehriban Nadirova və Nəzrin Məmmədova çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 29 ilə yaxın dövr ərzində bütün qüvvə və bacarığını dövlətə, xalqa xidmətə yönəldərək, mühüm uğurlara imza atıb: “Gələcəyə doğru inamla irəliləyən YAP cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Azərbaycanın hər bir uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçkilərdə qələbə qazanması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə, partiyanın gələcəyinə böyük inama əsaslanır”.

Ə.Tağıyev YAP Xəzər rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Xəzər rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində daha bir iclas keçirilib

***Dünən Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində daha bir iclas keçirilib. Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan parlament nümayəndə heyətinin Macarıstana rəsmi səfəri barədə danışıb. Bildirib ki, Avropa İttifaqının, NATO-nun və digər Avropa təşkilatlarının üzvü olan Macarıstan tarixi köklərinə əsaslanaraq, xarici siyasətində türkdilli dövlətlərlə münasibətləri inkişaf etdirməyə, türk dünyasına inteqrasiyaya xüsusi əhəmiyyət verir. Macarıstan Türk Şurasında, Türkdilli Ölkələrin Parlament Assambleyasında, türkdilli dövlətlərin digər inteqrasiya qurumlarında müşahidəçi kimi iştirak edir.***




Milli Məclisin sədri qeyd edib ki, Azərbaycanla Macarıstan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Ölkələrimiz arasında əməkdaşlıq dinamik inkişaf edir və bu əməkdaşlığın dərinləşdirilməsinə hər iki tərəfdən böyük diqqət göstərilir. Azərbaycan parlament nümayəndə heyətinin rəsmi səfəri Prezident İlham Əliyevin Macarıstanla münasibətlərin inkişafına verdiyi əhəmiyyətin ifadəsi idi.

Bildirilib ki, səfərin birinci günü Milli Məclisin nümayəndə heyəti Azərbaycanın Budapeştdəki səfirliyində olub. Orada ulu öndər Heydər Əliyevin xatirəsi anılıb, büstü önünə gül dəstələri qoyulub. Nümayəndə heyəti Azərbaycanın Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevlə görüş keçirib və fikir mübadiləsi aparıb.

İyunun 29-da Azərbaycan nümayəndə heyəti Türk Şurasının Budapeşt nümayəndəliyinin ofisində "2021-ci il - Nizami Gəncəvi İli"nə həsr olunmuş tədbirdə iştirak edib.

Türk Şurasının Budapeşt ofisinin rəhbəri cənab Yanoş Hovari, Macarıstan Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini Andraş Baranye çıxışlarında Azərbaycanın Macarıstan üçün qardaş və strateji tərəfdaş dövlət olduğunu vurğulayıblar. Onlar Türk Şurası çərçivəsində əməkdaşlığın iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini qeyd ediblər. Sonra iclasın gündəliyi təsdiq edilib və cari məsələlərin müzakirəsinə başlanılıb.

Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında Macarıstana səfərdə dostluq qrupunun rəhbəri kimi iştirak etdiyini qeyd edərək söyləyib ki, bu səfər iki ölkə arasında mövcud olan münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edir.

Ə.Hüseynli bildirib ki, Vətən müharibəsi bitdikdən sonra Azərbaycanda güc strukturlarının, hərbi strukturların peşə bayramları xüsusi şəraitdə qeyd olunur. Torpaqlarımız işğaldan azad olunub və bu prosesdə hərbçilər, güc strukturları yaxından iştirak ediblər. Bu gün Azərbaycan polisinin peşə bayramıdır. Azərbaycan polisi birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də peşəkarcasına, cəsarətlə iştirak edib, onlarla, yüzlərlə şəhid verərək, qazi olaraq Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edib.

Qeyd edilib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində də Azərbaycan polisi birinci Qarabağ müharibəsində fədakarlıq göstərib və Vətəni müdafiə edib. Növbəti mərhələdə, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi sabitliyin bərpa olunmasında Azərbaycan polisinin müstəsna rolu olub. 1994-1995-ci illərdə dövlət çevrilişinə cəhdin qarşısı uğurla alınıb. Daha sonda isə mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizə həyata keçirilib və Azərbaycanda tam ictimai-siyasi sabitlik bərpa olunub.

Sonra çıxış edən komitə sədrləri Musa Quliyev, Zahid Oruc, deputatlardan Sahib Alıyev, Azər Badamov, Razi Nurullayev, Məlahət İbrahimqızı, Elşən Musayev, Eldəniz Səlimov, Bəhruz Məhərrəmov, Ramin Məmmədov da polis işçilərinin peşə bayramlarını təbrik ediblər. Deputatlar, eyni zamanda, gündəmdə olan bir sıra aktual mövzularla bağlı öz fikirlərini bölüşüblər, seçiciləri narahat edən bəzi problemlərdən bəhs ediblər.

İclasın davamında parlamentin sədri deputatların diqqətinə çatdırıb ki, gündəlikdə 10 məsələ var. Qeyd edib ki, ilk 4 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Birinci və ikinci məsələlər cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Bildirilib ki, gündəliyin birinci məsələsi "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi, ikinci məsələsi isə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hər iki məsələ barədə məlumat verən parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, hər iki qanuna edilən dəyişikliklər vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Layihəyə əsasən, əgər şəxsə əlillik müddəti bitəndən sonra 6 aya qədər dövr ərzində yenidən əlillik təyin edilibsə, yeni əlillik təyinatı onun əvvəlki əlillik müddətinin bitdiyi tarixdən rəsmiləşəcək. Deputat Qüdrət Həsənquliyev fikirlərini söylədikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra Sahibə Qafarova bildirib ki, gündəliyin üçüncü və dördüncü məsələləri də Prezident İlham Əliyev tərəfindən bir zərfdə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

Əvvəlcə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" Qanunda dəyişikliklə bağlı məlumat verib. Bildirilib ki, sənəd vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə hazırlanıb. Dəyişikliklərin mahiyyəti ondan ibarətdir ki, dövlət orqanı əsasında publik hüquqi şəxs yarandığı zaman dövlət qulluğuna xitam verilən işçilərin pensiya yaşına iki il qalıbsa və onların 13 il stajı varsa, onların pensiyaları dövlət qulluqçusu kimi hesablanacaq. Yəni, onlara iki il güzəşt tətbiq olunur. Komitə sədri qanun layihəsinin ikinci oxunuşu zamanı söylənilən fikirlərə, verilən təkliflərə də münasibət bildirib. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub. Milli Məclisin növbəti plenar iclası başa çatıb.

# YAP Suraxanı rayon təşkilatının X hesabat konfransı keçirilib

***İyulun 2-də Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***




Gündəlik təsdiq edildikdən sonra YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov hesabat məruzəsi ilə çıxış edib. V.Seyidov ötən dövr ərzində rayon təşkilatının gördüyü işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, təşkilat partiya rəhbərliyinin tövsiyə və tapşırıqlarının yerinə yetirilməsi istiqamətində səylə çalışıb, Heydər Əliyev ideyalarının və Prezident İlham Əliyev siyasətinin uğurlarının ictimaiyyət arasında təbliğinə xüsusi diqqət yetirib. Hazırda YAP Suraxanı rayon təşkilatı özündə 110 ərazi ilk partiya təşkilatını və 9 min 277 üzvü birləşdirir.









V.Seyidov hesabat məruzəsində pandemiya ilə əlaqədar reallaşdırılan tədbirlər, eləcə də şəhid ailələri və qazilərlə keçirilən görüşlərdən də bəhs edib. Daha sonra YAP Suraxanı rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri Məşkur Mirzəyevin hesabat məruzəsi dinlənilib.

Müzakirələr zamanı Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, YAP Suraxanı rayon təşkilatının 327 nömrəli tam orta məktəb üzrə ərazi ilk partiya təşkilatının sədri Səadət Məmmədova, şəhid Orxan Hüseynovun anası, 15 saylı Birləşmiş Şəhər Xəstəxanasının həkimi Xalidə Həmzəyeva, YAP Suraxanı rayon təşkilatı 6 saylı xüsusiləşmiş vərəm xəstəxanası üzrə ərazi ilk partiya təşkilatının sədri İlhamə Cabbarova və YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Murad Sarıbalayev çıxış edərək YAP Suraxanı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyası ölkəmizin avanqard siyasi qüvvəsidir. Partiyamız yarandığı gündən dövlətin və xalqın maraqları naminə fəaliyyət göstərərək ümumxalq partiyası statusunu qazanıb. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız inkişafının yeni mərhələsini yaşayır.

Ə.Tağıyev həmçinin YAP-ın VII Qurultayının qərarları ilə bağlı yerli təşkilatların üzərinə düşən vəzifələrdən danışıb, YAP Suraxanı rayon təşkilatına fəaliyyətində uğurlar arzulayıb. Qeyd edək ki, YAP Suraxanı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Ələt AİZ-in təməlinin qoyulması ölkə iqtisadiyyatında, xüsusilə də, qeyri-neft sektorunda yeni iqtisadi hadisədir



Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsini üzvü Aydın Hüseynovun yap.org.az-a müsahibəsi

***- Aydın müəllim, Prezident İlham Əliyev tərəfindən Ələt Azad İqtisadi Zonasının (AİZ) təməli qoyuldu. Bu layihənin ölkə iqtisadiyyatında hansı əhəmiyyəti vardır?***

- Azərbaycan iqtisadiyyatı son illər müasir inkişaf yolu ilə yeni trendlərə uyğun irəliləməkdədir. Ölkəmizdə innovativ iqtisadiyat quruculuğuna uyğun olaraq ən qabaqcıl və mükəmməl iqtisadi modellər tətbiq olunur, dünyada geniş yayılmış müasir rəqəmsal texnologiyalar sənaye cəmiyyətində geniş yayılır, iqtisadiyyatın idarəetmə prinsipləri tamamilə yeni çağırışların ahənginə uyğun nizamlanır. Sahibkarlığın inkişafının yeni modellərinin - xüsusi iqtisadi zonaların, sənaye park və məhəllələrinin, biznes inkubatorlarının tətbiqi sahəsində müvafiq işlər aparılır. Bu baxımdan ölkəmiz üçün yeni iqtisadi hadisə kimi qiymətləndirilə bilən Azad İqtisadi Zonaların yaradılması geniş miqyas alan iqtisadi islahatların ən mühüm tərkib hissəsi hesab edilə bilər. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunmaqdadır. Bu siyasətin davamı kimi Cənab Prezident tərəfindən bu layihənin bünövrəsinin qoyulması yerli və xarici azad biznesə yeni potensial verilməsi, innovativ sənaye quruculuğuna geniş meydan yaradılması və iqtisadiyyatın şaxələndirilməsi siyasətinin yeni bir mərhələyə qədəm qoyması kimi qiymətləndirilməlidir.

Ələt İqtisadi Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir. Ümumi sahəsi 850 hektar olacaq AİZ-in 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb. Bu o deməkdir ki, artıq Ələt geniş sənaye zonası kimi öz qapılarını bütün investorların üzünə açıb və istehsal, emal, xidmət və digər fəaliyyətlərin həyata keçirilməsinə start veriləcək.

***- Ələt AİZ-də sərmayəçilərin geniş axınını təmin etmək üçün hansı güzəştlər və iqtisadi stimullar nəzərdə tutulub.***

- Beynəlxalq təcrübədə geniş yer alan Azad iqtisadi zonalar xüsusi rejim altında fəaliyyət göstərən ölkə ərazisinin bir hissəsidir. Hazırda dünyanın 100-dən çox ölkəsində 1000-dən artıq XİZ fəaliyyət göstərir. Onların 500-ə yaxını Asiya və Sakit Okean regionunda, 200-dən çoxu Amerika qitəsi ölkələrində, 200-dən çoxu Yaxın Şərq və Afrika ölkələrində, 100-dən çoxu isə Avropada yerləşir. Azərbaycanda azad iqtisadi zonaların yaradılması sahəsində ötən müddətdə mühüm işlər görülüb. Belə ki, ən yaxşı beynəlxalq təcrübə öyrənilib, təhlillər aparılıb və onun ölkəmizdə tətbiqi üçün ilk olaraq normativ hüquqi bazanın formalaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilib. Cənab Prezident tərəfindən 2019-cu ildə imzalanmış, "Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq fərmanlara əsasən bu ərazidə iqtisadi fəaliyyətin hüquqi-texniki əsasları müəyyən edilib. Həmin sənədə əsasən, müvafiq dövlət qurumları AİZ-də biznes, vergi, gömrük, digər iqtisadi və sosial tədbirlərin hüquqi-iqtisadi mexanizmləri hazırlayıblar. Ələt AİZ-in Yol Xəritəsi müəyyən edilib. Belə ki, Ələt AİZ-də maliyyə və sığorta xidmətləri, torpaq münasibətləri, gömrük, miqrasiya, əmək münasibətləri, vergi tənzimlənməsi, notariat fəaliyyəti, müflisləşmə və iflas, rəqabət. əqli mülkiyyət, ətraf mühit və s. məsələlərlə bağlı xüsusi güzəştlər tətbiq olunacaq.

Ələt AİZ-də fəaliyyət göstərəcək investorlar bütün vergilərdən azad ediləcək, müxtəlif növ güzəşt və stimullardırıcı addımlar tətbiq olunacaq. Xarici ticarətdə güzəştlər (ixrac-idxal rüsumlarının azaldılması və ya ləğvi, xarici ticarət əməliyyatlarının sadələşdirilməsi), fiskal güzəştlər - müəyyən fəaliyyət növlərinin vergilər baxımından stimullaşdırılmasını nəzərdə tutulur. Bu güzəştlər vergi bazası (mənfəət və ya gəlir, əmlakın dəyəri və s.) və onun ayrı-ayrı komponentlərini (amortizasiya ayırmaları, əməkhaqqına, elmi-texni tərəqqiyə və nəqliyyata çəkilən xərclər), vergi dərəcələrinin səviyyəsini, vergilərdən daimi və ya müvəqqəti azadolmalar kimi məsələləri əhatə edə bilər. Eyni zamanda, maliyyə güzəştləri - subsidiyaların müxtəlif formalarını əhatə edir. Subsidiyalar büdcə vəsaitləri və güzəştli dövlət kreditləri hesabına - birbaşa və kommunal xidmətlərə aşağı qiymət qoymaqla, torpaq sahələrindən istifadə etmək üçün icarə haqqının azaldılması yolu ilə - dolayı formalarda verilə bilər. AİZ-də administrativ (inzibati) güzəştlər - müəssisələrin qeydiyyatdan keçirilməsi, xarici vətəndaşların ölkəyə girişi və çıxışı prosedurlarının sadələşdirilməsini nəzərdə tutulur.

Ələt AİZ-də geniş iqtisadi spektrdə sərbəst surətdə qərar verə bilmək hüququna malik olan lokal, xüsusi bir idarəetmə sistemi mövcud olacaq. Azad Zonada fəaliyyət göstərən şəxslərə hər hansı milliləşdirmə, müsadirə tədbirləri və ya özəl mülkiyyətə aid hər hansı digər məhdudiyyət tətbiq edilə bilməz. Biznes nümayəndələrinə valyuta əməliyyatları aparmaq azadlığı veriləcək, mənşə sertifikatları üçün rüsum tələb olunmayacaq. İnvestorların, səhmdarların, Azad Zona rezidentlərinin, hüquqi şəxslərinin və onların işçilərinin, heç bir məhdudiyyət olmadan, hər hansı xarici valyuta ilə işləməyə və əməliyyatlar aparmağa hüququ vardır. AİZ-də dövlətin də hərtərəfli dəstəyi olacaq.

***- AİZ-in fəaliyyətinin Azərbaycanın qeyri-neft sektorunun inkişafında hansı təsirlərini proqnozlaşdırmaq mümkündür?***

- Bu zona əsas etibarilə indistrula cəmiyyətin, elmi texnologiaylara və dördüncü sənaye inqilabının tələblərinə əsaslanan çoxşaxəli iqtisadi layihədir və bu modelin əsas hədəfi də qeyri-neft iqtisadiyyatının inkişafına dərin töhfə verməkdir. Yerli və xarici investisiyaların ölkə iqtisadiyyatının inkişafına cəlb edilməsi, investisiya mühitinin daha da yaxşılaşdırılması, yeni rəqabətqabiliyyətli və səmərəli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsi yeni qeyri-neft siyasətinin əsas hədəfləridir. Bu baxımdan AİZ Azərbaycanın neft iqtisadiyyatının gələcək inkişafında yeni nəfəsin açılması deməkdir, nefti əvəz edən genişhəcmli gəlir əldəetmə sektorunun möhkəmlənməsinin təmin edilməsidir. Ələtdə 10-lar sənaye müəssisəi yaradılacaq, dünyanın ən nüfuzlu şirkətləri ilə əməkdaşlıq çərçivəsində ən son texnologiyalara əsaslanan rəqabətqabiliyyətli məhsul istehsal olunacaq. Bu layihələrin icrası sayəsində qeyr-neft sektorunun əsas aparıcı bölməsinə çevrilməklə, qeyri-neft məhsullarının ixrac imkanlarının genişlənməsinə dərin töhfə verəcək. Azərbaycana böyük iqtisadi dividendlər, qeyrineft valyitasının axını təmin olunacaq. Onu da nəzərə almaq lazımdır ki, Ələt Azərbaycanın ən mühüm strateji tranzit nöqtələrindən birinə çevrilməkdədir və bu baxımdan AİZ Azərbaycanın Cənubi Qafqazda sürətli inkişafını böyüdəcək və ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. AİZ-in təşkili dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Ələt AİZ, Qaradağ rayonunun sosial-iqtisadi inkişafına da dərin töhfə verəcək.

***- Aydın müəllim, AİZ-in coğrafi - ərazi baxımından Ələtdə yerləşməsinin səbəbini necə izah edərdiniz?***

- AİZ-in yerinin Ələtdə seçilməsi də təsadüfi deyil. Ələtin yerləşdiyi Qaradağ rayonu hazırda Azərbaycanın ən strateji logistika-nəqliyyat mərkəzlərindən biri hesab edilir və coğrafi baxımdan tranzitlərin qovşağıdır. Bu ərazi respublikanın ərazisindən keçən avtomobil və dəmir yollarının kəsişməsində yerləşir. Eyni zamanda, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin işə düşməsi bu ərazinin gələcəkdə çox böyük bir iqtisadi məkana çevrilməsi üçün zəmin yaradır. Bura su yollarının da əlavə olunmasından sonra həmin ərazinin geniş potensial ixrac imkanlarına malik beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün zəmin yaranır. Ələt həm də Qaradağın coğrafi baxımdan əlverişli və ərazisində böyük boş torpaq sahələrinin olmasına görə, fərqlənir. Bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır. Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Bu ərazidə beynəlxalq dəhlizlər yerləşir. Şərq-Qərb dəhlizi, Şimal-Cənub dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Bütün bu amillər Ələtin regional və beynəlxalq coğrafi statusunu formalaşdırıb. Məhz buna görə AİZ-in təşkilində ən münasib ərazi kimi Ələt seçilibdir.

Beləliklə, Ələt AİZ Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan və ölkədən çıxan, habelə tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edəcək. Şimal, Cənub, Şərq və Qərb istiqamətləri üzrə dəhlizlərin, quru, su və hava nəqliyyatı qovşaqlarının burada yerləşməsi Ələtədə böyük və genişşəbəkəli logistik zəncirin formalaşdırılmasına səbəb olacaq.

# ATƏT PA-nın iclasında Ermənistanın işğaldan azad edilmiş Azərbaycan Ərazilərində törətdiyi vandalizm aktlarından danışılıb




Milli Məclisin deputatı Ülviyyə Ağayeva ATƏT PA-nın Siyasi Məsələlər və Təhlükəsizlik Baş Komitəsinin onlayn iclasında iştirak edib. AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən deputat Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində tarixi, mədəni və dini irsə aid 400-dən çox abidənin Ermənistan tərəfindən məhv edildiyini bildirib.

"Bildiyiniz kimi, Azərbaycan əraziləri 30 ilə yaxın idi ki, ermənilərin işğalı altında idi. 1990-cı illərin əvvəllərindən bəri Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərimizdə mədəni irsimizə qarşı qanunsuz olaraq demoqrafik mənzərənin dəyişdirilməsi, infrastrukturun dağıdılması və vandalizm məqsədli digər tədbirlər həyata keçirilib. Təəssüflə deməliyəm ki, Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərindəki dağıntıların miqyası olduqca genişdir. Azərbaycanın tarixi və mədəni irsinin qəsdən məhv edilməsi və mənimsənilməsi, habelə şəhərlərin dəyişdirilən memarlıq xüsusiyyətləri, onların Azərbaycan mənşəli olduğunu təsdiqləyən əlamətlərin silinməsi ilə Ermənistan məqsədini açıq şəkildə nümayiş etdirdi. Dərin nifrət və düşmənçiliyin daha bir nümunəsi Azərbaycanın yerlə-yeksan olunmuş Ağdam rayonudur. Siz bu rayonun işğaldan əvvəlki vəziyyətini asanlıqla tapa və hazırkı vəziyyətlə müqayisə edə bilərsiniz. Bəzi beynəlxalq jurnalistlər Ağdam şəhərini "XXI əsrin Xirosiması" adlandırırlar", - deyə deputat qeyd edib.

Ü.Ağayeva bildirib ki, bir vaxtlar işğal olunmuş Qarabağ bölgəsində Azərbaycanın tarixi, mədəni və dini irsinə aid 400-dən çox abidə Ermənistan tərəfindən məhv edilib. Qarabağ bölgəsindəki məscidlərdən - müsəlmanlar üçün müqəddəs olan məkanlardan donuz və mal-qara saxlamaq üçün tövlə kimi istifadə edilib. Azərbaycan isə bu mənasız vandalizm hərəkətlərinə cavab olaraq mənşəyindən asılı olmayaraq, azad edilmiş ərazilərimizdəki bütün dini irsin və abidələrin qorunacağı, hətta yüksək səviyyədə bərpa ediləcəyi mesajini verdi və bunu həyata keçirmək üçün konkret addımlar atır. Azərbaycan özünü fərqli mədəniyyət və dinlərə mənsub xalqların sülh və əmin-amanlıq şəraitində yaşaya biləcəyi ölkə olaraq tanınır. Bu Roma Papası Fransisk tərəfindən dünya üçün model kimi qiymətləndirildi.

"Azərbaycan azad edilmiş ərazilərdəki humanitar vəziyyəti yaxşılaşdırır və qarşıdurmadan sonra sürətli bərpa istiqamətində irəliləməyi hədəfləyir. Lakin təəssüf ki, Ermənistan revanşist ritorika ilə məsuliyyətsiz və təxribatçı siyasətini davam etdirir. Bu ölkənin təcavüzkar hərəkətləri regional sülhü və təhlükəsizliyi təhdid edir", - deyə deputat qeyd edib.

# Dövlətlə birlikdə güclənmək və güclü olmaq konsepsiyası

*Medianın İnkişafı Agentliyinin (MEDİA) son on ilin ən mübahisəli və mürəkkəb bir ideyasını - dövlət maliyyələşmə tarixində ilk dəfə olaraq çap media ilə yanaşı saytların da şəffaf maliyyələşdirilməsini reallaşdırdı*

***Xüsusən, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi və istəyi ilə ikinci dəfə siyasi hakimiyyətə gələrək bütün sahələrdə olduğu kimi, mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin, o cümlədən senzuranın aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və müasir dünya standartlarına uyğunlaşdırılması, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi kimi mühüm məsələləri həll etdi və bu addımlar medianın yüksəlişinə xidmət etdi.***

Ulu Öndər Heydər Əliyev 1998-ci ildə mətbuat üzərindən senzuranı ləğv etdi. Bundan başqa, 1999-cu ilin sonunda "Kütləvi informasiya vasitələri haqqında" yeni Qanunun qəbulu media təsisatının inkişafını şərtləndirən, bəhs edilən sahəyə müvafiq surətdə sahəvi və ümummilli münasibətləri tənzimləyən hüquqi bazanın zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. 2000-ci ilin mart ayında Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu. İdarəçilik sisteminin islahatı çərçivəsində Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsi məqsədilə Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı. Bir sıra qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borcları donduruldu, sonradan isə ləğv edildi. Məhz buna görə də Heydər Əliyev 2001-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdü.

## Son 18 il - müstəqil mətbuatın inkişafında yeni mərhələ

Mətbuat sahəsində yaradılmış ənənələri daha da möhkəmləndirən Prezident İlham Əliyevin xüsusi diqqəti və qayğısı nəticəsində isə kütləvi informasiya vasitələrinin fəaliyyətində dövrün çağırışlarından irəli gələn yeni keyfiyyət mərhələsi başladı. 2003-cü ildən sonra ölkəmizin dinamik inkişaf mərhələsinə qədəm qoymasına nail olan Prezident İlham Əliyev söz və mətbuat azadlığını daim diqqət mərkəzində saxlayır. 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Dövlət başçısı, həmçinin respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etməsinə bütün imkanların yaradılmasının tərəfdarıdır. Bu dövrdə milli mətbuatımızın yaranmasının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, yubiley münasibətilə mətbuat işçilərinin təltif edilməsi, fəxri adlar alması, habelə kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsi jurnalistlərin əməyinə verilən yüksək qiymətin göstəricisidir. O cümlədən mətbuat işçiləri üçün dövlət hesabına yaşayış binalarının tikilməsi də mətbuat təmsilçilərinə yüksək diqqət və qayğının bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, jurnalistlər üçün dövlət hesabına yeni mənzillərin inşası dünya miqyasında analoqu olmayan bir addımdır.

Bu gün dünyanın çox az ölkəsində mətbu orqanın təsis edilməsi ilə bağlı Azərbaycandakı kimi liberal qaydalara rast gəlmək olar. Bunun nəticəsidir ki, son illərdə ölkədə televiziyaların, radioların, o cümlədən internet televiziyalarının, informasiya agentliklərinin, xəbər saytlarının sayı artıb. Bütövlükdə ölkədə əhalinin internetə çıxışı ən yüksək səviyyədə təşkil olunub ki, bu da söz azadlığının təmin olunmasında əsas vasitələrdən biridir. Bütün bunlar göstərir ki, Azərbaycan dövləti mətbuatın inkişafında maraqlıdır və bunun üçün bütün zəruri tədbirləri həyata keçirir. Dövlət özünün Konstitusiya prinsiplərinə sadiq qalaraq söz və məlumat azadlığının təmin edilməsi sahəsində müəyyən etdiyi siyasi xətti ardıcıl şəkildə davam etdirir. Kütləvi informasiya vasitələrinin (KİV) "Azərbaycan" nəşriyyatına olan borcları tamamilə ləğv edildi, mətbu azadlıqların təmin edilməsi və mətbuata qayğı keyfiyyətcə yeni KİV formalaşdırdı. Prezident İlham Əliyev tərəfindən atılan bütün bu addımlar və görülən tədbirlər Azərbaycan mətbuatının inkişafına xüsusi töhfələr bəxş etdi. Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il fevralın 8-də imzaladığı sərəncama əsasən redaksiyaların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borcu dövlət büdcəsindən ödənildi.

2005-ci ildən bu günə kimi 300-ə yaxın KİV əməkdaşı dövlət mükafatlarına və fəxri adlara layiq görülüb, 2005-ci ildə 30 qəzet redaksiyasının hər birinə 2 min manat, 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5 min manat, 2009-cu ildə isə 39 qəzet redaksiyasına, yenə də ayrılıqda 10 min manat məbləğində dövlət tərəfindən yardım ayrılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı 2008-ci il 31 iyul tarixli sərəncam ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" söz və məlumat azadlığının, KİV-lərin müstəqilliyinin təmin edilməsi məqsədilə kompleks tədbirlər nəzərdə tutan mühüm sənəddir. Və konsepsiyada əks olunmuş məsələlərin həlli üçün 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna çox əhatəli və genişmiqyaslı tədbirlərin həyata keçirilməsi üçün 2009-cu ildə dövlət büdcəsindən fonda 1,3 milyon manat, 2010-cu ildə isə 2 milyon manat ayrılmışdır.




Dövlət başçısının sərəncamı ilə ölkədə fəaliyyət göstərən 32 qəzet redaksiyasının hər birinə 20 min manat, 8 informasiya agentliyinin hər birinə 10 min manat birdəfəlik maddi yardım ayrıldı. 92 nəfər mətbuat işçisi isə fəxri adlara layiq görüldü və "Tərəqqi" medalı ilə təltif edildi. Prezident "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" sərəncam imzaladı. Prezidentin ehtiyat fondundan KİVDF-yə 5 milyon manat pul ayrıldı. Bu nəinki MDB məkanında, heç Avropanın ən inkişaf etmiş dövlətlərində belə jurnalistlərin sosial müdafiəsi bu dərəcədə dövlət qayğısı ilə əhatə olunmayıb.

## MEDİA-nın yaradılması zamanında atılan addımdır

Sözsüz ki, bütün sahələrdə olduğu kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasında media sahəsində də islahatların aparılmasına aparılmasına zərurət yarandığı üçün "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı.

Beləliklə, Medianın İnkişafı Agentliyi KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun hüquqi varisi olaraq, onun hüquq və öhdəlikləri, habelə əmlakı Agentliyə keçdi. Fərmana əsasən Agentliyin nizamnamə fondu 285 min 405 manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi sədr və 6 üzvdən ibarət Müşahidə Şurası həyata keçirir; Agentliyin fəaliyyətinə cari rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İcraçı direktor həyata keçirir.

Bir məqamı vurğulamaq lazımdır ki, KİVDF təsis olunduğu 10 il ərzində müəyyən media nümayəndələri ilə müəyyən problemlərin yaranması ciddi narazılığa səbəb olurdu. Belə bir məqamda Medianın İnkişafı Agentliyinin yaradılması zamanında atılan addım idi. Və bu gün Medianın İnkişafı Agentliyi, əslində, son on ilin ən mübahisəli və mürəkkəb bir ideyasını həyata keçirdi və ancaq klassik media ənənələrinin yaşadılmasına daha çox üstünlüklə yanaşı, həm də elektron medianın, yəni yeni medianın inkişafında bilavasitə iştirak edə biləcək mühüm qurum olduğunun fəaliyyətə başladığı bu 6 ay müddətində bir daha göstərdi, 6-sı gündəlik, 12-si həftəlik olmaqla 18 qəzetin və 32 saytın aşkar meyarlarla maliyyələşdirilməsini rəsmiləşdirən MEDİA Agentliyinin dövlət maliyyələşməsindən kənarda bircə müstəqil qəzet də qalmayıb. Vacib olan odur ki, qəzetlərin maliyyələşməsi prosesinin dönməz xarakteri təmin edilib və maliyyələşmənin indiki mexanizmi gələcək təkmilləşmələri də özündə ehtiva etmək şərti ilə, əsasən, doğru variant kimi qəbul edilib.

Qəzetlərin şəffaf maliyyələşməsi bir mərhələ idisə, saytların maliyyələşməsi ikinci mərhələ oldu. Xüsusilə də, MEDİA-nın bu günlərdə elan etdiyi ikiseqmentli (çap və onlayn media) maliyyələşmə milli medianın məhz dövlətlə birlikdə güclənmək, güclü olmaq konsepsiyasının həyata keçirilməsinə xidmət edir və şəffaf rəsmi maliyyələşmə bir sıra saytların qarşısında yeni inkişaf pilləsi deməkdir.

Qeyd edək ki, Medianın İnkişafı Agentliyinin (MEDİA) açıqladığı nəticələrə əsasən, təqribən 39 onlayn media resursu, 18 çap media qurumu - qəzet (ümumilikdə 57 media qurumu) müsabiqənin qalibi olub. Əgər bundan öncəki, sonuncu müsabiqənin nəticələri ilə müqayisə etsək görərik ki, qaliblərin sayı təqribən 3 dəfə artıb, yeni kəmiyyət artımı bu müsabiqənin bir yeniliyidir, quru statistikadan ibarət deyil. Növbəti yenilik onlayn media qurumlarına müsabiqədə iştirak etmək və qalib gəlmək şansı verilməsi, müsabiqəyə qatılmaq istəyənlər üçün müəyyənləşdirilən şərtlərdir ki, bu şərtlər də məzmun istehsalı, işçi heyət, rekvizitlərlə bağlıdır.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun dediyi kimi: "Bu yolla keyfiyyətli xəbər istehsalının təmin edilməsinə, bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə, həmçinin kütləvi informasiyanın əldə olunması, ötürülməsi, istehsalı və yayımı fəaliyyətində inkişafa nail olunacaq".

Bir sözlə, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda dövlət-mətbuat münasibətləri bundan sonra da yüksək səviyyədə olacaq, media nümayəndələri üzərlərinə düşən missiyanı müasir texnologiyaların yaratdığı imkanlardan maksimum istifadə etməklə uğurla yerinə yetirəcəklər.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan polisi 103 il ş

## *Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə Qoşunlarının hərbi qulluqçularının aylıq vəzifə maaşları ilə b*

***103 ildir ki, şərəfli yol keçən Azərbaycan polisi iyulun 2-də peşə bayramlarını qeyd edir. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yaranmış mürəkkəb vəziyyət, ölkə həyatının bütün sahələrini bürümüş hərc-mərclik və özbaşınalıq hüquq mühafizə strukturlarından da yan keçməmişdi. Belə ağır vəziyyətdə xalqımızın təkidi ilə 1993-cü ilin iyununda Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Ümummilli Liderimiz Heydər Əliyev ölkəni vətəndaş müharibəsi və parçalanmaq təhlükəsindən xilas etdi, müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu ideologiyasının, habelə milli inkişaf modelinin əsasını qoydu. Demokratik prinsiplərin və ənənələrin varisliyinə əsaslanan Ümummilli Liderimiz Heydər Əliyev 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-ni Azərbaycan Polisi Günü elan olundu.***







### Vətən müharibəsi bitdikdən sonra Azərbaycanda güc strukturlarının peşə bayramı xüsusi şəraitdə qeyd olunur

Vətən müharibəsi bitdikdən sonra Azərbaycanda güc strukturlarının peşə bayramı xüsusi şəraitdə qeyd olunur. Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ müharibəsində də polis əməkdaşları fədakarlıq göstərib, Vətəni müdafiə edib. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdandan sonra da Azərbaycan polisi ictimai-siyasi sabitliyi qorumağa nail olub və bundan sonra Prezidentin siyasətinə, xalqımıza, dövlətimizə sədaqətlə xidmət edəcək. Qeyd edək ki, Azərbaycan polisi dövlət başçımız İlham Əliyev tərəfindən daima yüksək dəyərləndirilir. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 44 gün davam edən Vətən müharibəsində döyüş meydanında tarix yazan Azərbaycan Ordusunun döyüş qabiliyyəti və maddi-texniki təminat baxımından beynəlxalq standartlara tam cavab verməsi, təkmilləşməsi istiqamətində uğurlu siyasət yürüdən dövlətimizin başçısının həyata keçirdiyi islahatlar sayəsində təhlükəsizlik orqanlarının fəaliyyəti də yeni müstəviyə yüksəlib. Azərbaycan polisinin peşə bayramı münasibəti ilə bağlı işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında sərəncam dövlət başçımızın qayğısının reallığıdır.

Dövlət başçımızın polis günün ilə bağlı imzaladığı Sərəncama əsasən, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilib.

Qeyd olunub ki, sərəncamın 1-ci hissəsində nəzərdə tutulan hərbi qulluqçulara (bundan sonra - hərbi qulluqçular): Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 50 faizi həcmində 5 (beş) il müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir; 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin əlavəsinin ödənilməsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.3.5.2-ci "Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər" yarımbəndində nəzərdə tutulmuş vəsaitin, növbəti illərdə isə dövlət büdcəsinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin saxlanılması xərclərində nəzərə alınması hesabına təmin ediləcək.

Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçulara onların Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış sayına və tərkibinə uyğun olaraq ödəniləcək.



### Azərbaycan polisi bu gün təhlükəsiz yaşamağımızın zamanətidir

Onu da qeyd edək ki, 2020-ci il tarixə Azərbaycanın şanlı Qələbəsi ili kimi yazılmaqla yanaşı, COVID-19-la mübarizənin dərinləşdiyi, bu öldürücü virusun insanların sağlamlığını təhdid dövrü kimi də xarakterizə olunacaq. Hər iki cəbhədə mübarizə birliyimizi, həmrəyliyimizi vacib amil kimi önə çəkərək "Biz birlikdə güclüyük!" çağırışının real həyatda öz əksini tapması ilə diqqət çəkir. Hər iki mübarizədə, ümumiyyətlə, ölkəmizdə sabitliyin, təhlükəsizliyin təminatında asayiş keşikçilərinin, təhlükəsizlik orqanları əməkdaşlarının rolu danılmazdır. Onlar hər zaman dövlətimizi, dövlətçiliyimizi, təhlükəsizliyimizi qoruyur, Vətənə, xalqa xidmət missiyasını şərəflə yerinə yetirirlər.

Onların əməyi hər zaman dövlətimizin başçısı İlham Əliyev tərəfin-



# ərəfli yolda

## xidmət edən DİN Daxili
## ağlı SƏRƏNCAM imzalayıb




dən yüksək dəyərləndirilir. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 44 gün davam edən Vətən müharibəsində döyüş meydanında tarix yazan Azərbaycan Ordusunun döyüş qabiliyyəti və maddi-texniki təminat baxımından beynəlxalq standartlara tam cavab verməsi, təkmilləşməsi istiqamətində uğurlu siyasət yürüdən dövlətimizin başçısının həyata keçirdiyi islahatlar sayəsində təhlükəsizlik orqanlarının fəaliyyəti də yeni müstəviyə yüksəlib. Bu təkmilləşmənin, yeniləşmənin nəticələri istər COVID-19-la mübarizə, istərsə də İkinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyünün, təhlükəsizliyinin, sabitliyinin yüksək səviyyədə təmin olunmasında özünü qabarıq şəkildə göstərir. Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallara, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

### Azərbaycan polisinin fədakarlıq nümunəsi

Bu gün hüquqi, demokratik dövlət olan Azərbaycanda bütün məsələlər məhz qanunlar əsasında tənzimlənir. Ölkə Prezidenti çıxışlarında Azərbaycan la dayanan seçilmiş polis əməkdaşlarını daima müdafiə edəyəcəyini dəfələrlə vurğulamışdır: "Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yeni cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edir. Mən görülmüş bu işləri yüksək qiymətləndirirəm və bilirsiniz ki, polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm".

Məhz Azərbaycan polisi də ictimai sabitliyin təmin olunması naminə aparılan hər hansı əməliyyatlarda itki versə də, üzərinə düşən vəzifənin öhdəsindən qətiyyətlə gəlir. Çünki Azərbaycan polisinin əsas amalı vətəninə, dövlətinə sədaqətli xidmət etməkdir. Məhz bu göstəricilər vətəndaşların polisə inam və etimadını daha da artırır, insanlar özlərini daha təhlükəsiz, daha güvənli bir cəmiyyətdə hiss edirlər. Polis ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu və hüquq qaydalarını təmin etmək kimi mühüm vəzifələrin öhdəsindən layiqincə gəlir.

Göründüyü kimi, bu gün hər bir vətəndaş əmindir ki, fəaliyyətinin 103-cü ildönümünü qeyd edən Azərbaycan polisi onun həyat və sağlamlığının, hüquq və azadlıqlarının, qanuni mənafelərinin, ictimai asayişinin keşiyində, dövlətin etibarlı mühafizəsindədir.

RƏFİQƏ HÜSEYNOVA

# Polislər vətəndaşların gözü ilə

İyulun 2-də Azərbaycan Polisi yaranmasının 103-cü ildönümünü qeyd edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmana uyğun olaraq iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub. SIA asayişimizin keşiyində dayanan polislərimiz haqqında paytaxt sakinlərinin fikirlərini öyrənib.



**Paytaxt sakini Orxan Abbasov:** "Polislərimizin peşə bayramını təbrik edirəm. Onlara uzun ömür, işlərində uğurlar arzulayıram. Mənim babam da keçmiş polis əməkdaşı olub. Hal-hazırda təqaüddədir. Polis əməkdaşları həqiqətən istər pandemiya dövründə, istərsə də 2-ci Qarabağ döyüşləri zamanı çox çalışıblar. Bir daha bütün Daxili İşlər Nazirliyinin əməkdaşlarının peşə bayramını təbrik edirəm".



**Paytaxt sakini Əzizə Ağamirova:** "Əziz polislərimizi təbrik edirəm. Polislərimizin çəkdiyi zəhmət həqiqətən çox qiymətlidir. Pandemiya dövründə bizim asayişimizi qorumaq üçün çox əziyyət çəkiblər, polislər arasında virusa yoluxma halları digər vətəndaşlardan qat-qat çox idi. Amma buna baxmayaraq, onlar işlərinin öhdəsindən layiqincə gəldilər. Bir daha mən də öz adımdan bütün polis işçilərimizin bayramını təbrik edirəm".



**Paytaxt sakini Çingiz Əliyev:** "Öz adımdan və polisin fəaliyyətinə qiymət verən hər bir vətəndaş adından polislərin bayramını təbrik edirəm. Onu deyə bilərəm ki, polis peşəsi çox çətindir. Gecələri, gündüzləri olmur. Biz vətəndaşlar üçün çalışan polislərimiz bəlkə də ailələri ilə çox zaman keçirə bilmirlər. Bəzən olur ki, vətəndaşlarımız polislərimizə sərt reaksiyalar verirlər amma və-

ki, onlar bizim asayişimizi qorumaq üçün lazımi tədbirlər görürlər. Bir daha bayramlarını təbrik edirəm".



**Paytaxt sakini Elton Əsgəroğlu:** "Bu gün mənim üçün sevindirici gündür. Çünki mən özüm də keçmiş polis işçisi olmuşam. Hal-hazırda təqaüddəyəm. Bu vəzifə həqiqətən həm çətin, həm də çox şərəflidir. Mən də öz adımdan keçmiş həmkarlarımı, hal-hazırda polis orqanlarında çalışan bütün əməkdaşları təbrik edirəm, onlara işlərində uğurlar arzu edirəm".



**Paytaxt sakini Şəlalə Xəlfəli:** "Polislərin peşə bayramını təbrik edirəm, onlara işlərində uğurlar arzulayıram. İstəyərəm ki, vətəndaşlarımız polislərimizə qarşı daha açıq düşüncəli olsun, onların gördükləri işlərə qiymət verməyi bacarsınlar və polislərimizə dəyər versinlər. Əgər biz normal həyat yaşayırıqsa, özümüz və ailəmiz rifah halında yaşayırsa bu polislərimizin sayəsindədir. Bir daha bütün polislərimizin bayramını təbrik edirəm".



**Paytaxt sakini Oktay Şamil:** "Polislərimiz hər zaman bizi qoruyub, istər sovet dövründə, istərsə də müstəqilliyimiz dövründə bizim hüquqlarımızın tapdalanmasının qarşısını alıb. Mən bu yaxınlarda bir məsələ ilə bağlı Daxili İşlər Nazirliyinə müraciət etdim. Başda nazirimiz olmaqla bütün əməkdaşlar bu məsələyə çox ciddi yanaşdılar və ən qısa zamanda məsələnin həlli yolu tapıldı. Polis asayişin hər zaman keşiyindədir. Öz işini bilən, bacarıqlı polislərimizin sayı həddən artıqdır. Mən bütün polislərimizin bayramını təbrik edirəm, onlara uzun ömür arzula-



**Paytaxt sakini Fazil Qafarov:** "Allahdan bizim polislərimizə uzun ömür can sağlığı arzu edirəm. Həqiqətən də polislərimiz qoyulan qanunlara layiq işlər görürlər. Bunun da təcəssümündə Azərbaycan Respublikasında hər zaman əmin-amanlıq, sakitlik olub. Pandemiya dövrünü yada salaraq, onu deyə bilərəm ki, polislərimiz həmin dövrdə öz vəzifələrini uğurla icra ediblər. Bir daha başda daxili işlər nazirimiz Vilayət Eyvazov olmaqla bütün polis əməkdaşlarının peşə bayramını təbrik edirəm".



**Paytaxt sakini Ruziyyə Abdullayari:** "Azərbaycan polislərini peşə bayramını təbrik edirəm. İşlərində müvəffəqiyyətlər arzulayıram. Pandemiya dövründə və Qarabağ döyüşləri zamanı polislərimiz vətəndaşlara çox kömək etdilər. Pandemiya dövründə qoyulan məhdudiyyətlərə məhəl qoymayan vətəndaşlara polislərimiz tərəfindən düzgün qərarlar qəbul edilərək qayda pozuntusu edən şəxslər barəsində müəyyən tədbirlər gördülər. Polislərimiz olmasa biz şəhərdə gözəl və səmərəli zaman keçirdə bilmərik. Bir daha bütün polislərin bayramı mübarək olsun".



**Paytaxt sakini Marim Mustafayev:** "Mən özüm də keçmiş polis işçisi olaraq bütün polis əməkdaşlarının peşə bayramını təbrik edirəm. Polislərimiz həqiqətən də çox zəhmətkeş və ayıq-sayıqdır. 1-ci Qarabağ müharibəsi zamanı polislərimiz də döyüşlərdə iştirak edib. Bizim polis olan şəhidlərimiz də var. Allahdan onlara rəhmət diləyirəm. Polislərimiz olmasa biz bu gün belə gözəl bir mühitdə yaşaya bilmərik. Bir daha polislərimizin bayramını təbrik edirəm".

# Ayə, qoymayın, indi də üstümüzə Artak gəlir...

***..Belə görünür ki, dünənə qədər ermənilər Artak Beqlaryanın xidmətlərindən yetərincə yararlana bilmirmişlər. “Şikəstin biridir”-deyib Ombudsman eləyib oturtmuşdular bir küncdə. Amma sən demə, başqa ölkələrdə dövlət səlahiyyətlilərinin qəbul etdiyi qərarları dəyişdirmək hüququ olmayan ombudsmanlardan fərqli olaraq, ermənilərin şikəst bildikləri çəlimsiz Artak görün hələ bir “nələrə qadirmiş”.***

Deməli, bir müddət bundan əvvəl ombudsmanlıqdan imtina etmək qərarı verən Artak Beqlaryan artıq özünü “əyalət naziri” kimi təqdim edərək ermənilərə bir sıra vacib açıqlamalar verməyə başlayıb. Özü də elə açıqlamalar ki, “prezident” Arayik Arutyunyanın qeyri-müəyyən və gələcəyə dair ümumi baxışları olan rəsmi hesabatına heç bənzəyib eləmir. Belə ki, Arayikin açıqlamalarından fərqli olaraq, Artakın açıqlamaları ermənilər üçün daha inandırıcı, konkret, hədəfli daha nə bilim... hər şeyi yerində olan “açıqlamalardır”. Nə isə, keçək Artakın açıqlamalarına...

...Deməli, Artak nə deyir? ... Artak, ilk olaraq, hazırda Qarabağdan imkan tapıb qaça bilməyən və ona görə də otub-duruşunu “tikanüstü” bilən ermənilərə müraciət edərək onlardan qaçmamağı təvəqqe edir. Deyir ki, mən dünənə qədər sizlərə ombudsmanlıq etsəm də, əslində mənim gözəl rəhbərlik qabiliyyətim var. Ona görə də, icazə verin sizləri gözəl günlərə aparacaq gələcək planlarımı açıqlayım.

Beləliklə, Artak hazırda böyük su, elektrik problemləri ilə üzləşən ermənilərə ümid verir. Onlar üçün su təhlükəsizliyi səviyyəsinin artıracağını deyir. Deyir ki, bunun üçün ilk olaraq, Zəngəzur Mis-Molibden kombinatının çaylara axıtdığı zəhər dolu məmulatlı suyu azərbaycanlılar tərəfə yönəltməliyik...

Sonra da deyir ki, bu gün Azərbaycan mallarının əsas axını üçün böyük əhəmiyyət kəsb edən Qırmızı bazar-Şuşa yolundan azərbay-




canlıların istifadə etməsinə imkan verməyəcəm(?). (...kül başına, ay Hitler...) Çünki, azərbaycanlıların yollarda etdikləri “özbaşnalıqlar” barədə artıq rus sülhməramlıları da məlumatlıdırlar. Bununla bağlı, sən demə, “ermənilərin silahlı qüvvələri” də profilaktik tədbirlər görməyə başlayıblar. (...üstünə, Artak gəlir)

...Burada İrəvanın səssiz davranışına münasibət bildirən Artak “əminliklə” Artsaxın Azərbaycanın tərkibinə daxilolma şərtini qəbul etməyəcəyini bildirib. Yəni, belə görünür ki, bundan sonra buradakı ermənilərin xarici və daxili siyasətini Artak şəxsən özü müəyyən edəcək.

Rus sülhməramlılarına gəlincə, Artak qeyd edib ki, onların iştirakı 5 ilə məhdudlaşmayacaq. Beqlaryanın dediyinə görə, bu gün “erməni ordusu” bir az zəifləsə də, amma gələcəkdə güclənib bizim təhlükəsizliyimizin qarantı ola bilər. Onun fikrincə, əgər bu olmasa, “...düşünürəm ki, təhlükəsizliyimizə zəmanət verən rus sülhməramlıları uzun müddət Artsaxda qalacaqlar”.

...İnanın ki, Artakın bu açıqlamalarına baxanda, ermənilərin rəhbər seçimindəki yanlışlıqlarına heyrət etdim. Doğrudan da, Arayik Arutyunyanla Artak Beqlaryan arasındakı müqayisə ölçüyəgəlməzdir.

Belə görünür ki, azərbaycanlıların taleyi üzlərinə gülüb, yəni 44 günlük müharibə dövründə Artak Beqlaryan elə bir səlahiyyət sahibi olmayıb, sadəcə ermənilərə ombudsmanlıq edib... Amma görünən budur ki, Beqlaryan bu gün siyasi liderlik üçün ciddi bir iddia irəli sürür(?).

Maraqlıdır ki, bəzi ermənilər bu gün rəsmi İrəvanın qarabağlı ermənilərin daxili problemlərindən, həm də münaqişənin həlli prosesindən açıq şəkildə uzaqlaşdığına diqqət çəkərək Artak başda olmaqla digər ermənilərin ruslara yalmanmaqla nəyəsə nail ola biləcəyinə ümid edirlər.

Təbii ki, burada mənim fransız səyyahı Qraf De Şolenin ermənilər barədə dedikləri yadıma düşür. Səyyah yazırdı ki, “...ermənilərin yoxsulluq və əzab-əziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilməzdim...”.

***Ağasəf Babayev***

# Cırıq şalvar geyinən oğlan və qızlara - CƏMİYYƏTİN BAXIŞI

Son illərin “cırıq şalvar” modası gənclər arasında əsas trendlərdən biri olsa da, cəmiyyətimizdə bununla bağlı fikirlər müxtəlifdir. Mövzu ilə bağlı SIA paytaxt sakinlərinin fikirlərini öyrənməyə çalışıb.



**Paytaxt sakini Hacı Səfərli:** “Ümumiyyətlə cırıq və yaxud sökük şalvar heç vaxt geyinməmişəm. Amma geyinənlərə də pis baxmıram. Hər kəsin düşüncə azadlığı geyim seçimi var. Buna görə də, hər bir halda cırıq şalvar geyinən insanlara hörmətlə yanaşıram”.



**Paytaxt sakini Səadət Mustafayeva:** “Müasirliyin əleyhinə deyiləm. Amma müasirlik o demək deyil ki, insanlar mütləq cırıq şalvar geyinməlidir. Azərbaycan xalqının mentalitetinə uyğun geyinməlidirlər. Müasir, gözəl geyinsinlər. Amma cırıq şalvarı müasirlikdən hesab etmirəm. Mənim iki uşağım da tam ali təhsillidirlər. Amma heç biri cırıq şalvar geyinmir”.



**Paytaxt sakini Yusif Rəcəbəliyev:** “Sökük, cırıq şalvar geyinən insanlara pis baxmıram. Çünki mən də cırıq şalvar geyinirəm. Ailəm də cırıq şalvar geyinməyimə heçnə demir. Məncə, hərənin öz şəxsi fikri, düşüncəsi var. Müasir dövrdür”.



**Paytaxt sakini İlahə Xanməmmədova:** “Cırıq şalvar geyinmirəm. Amma geyinənə də pis baxmıram. Çünki hər kəs azaddır. Düşünürəm ki, hər kəs öz zövqünə uyğun geyinməlidir. Bunda bir problem görmürəm”.

**Paytaxt sakini Səttar Məmmədli:** “Cırıq şalvarı sevmirəm və geyinmirəm. Fikrimcə, hərənin öz düşün-



cəsi, öz dünya görüşü var. Yəni necə istəyirlərsə, elə də geyinə bilərlər. Amma, cırıq şalvar geyinməsələr daha yaxşı olar”.



**Paytaxt sakini Sara Əliyarova:** “Gənclərin cırıq şalvar geyinməsinə çox pis baxıram. Uşaqlarıma da cırıq şalvar geyinməyə icazə vermirəm”.



**Paytaxt sakini Cəlil Kazımlı:** “Sözsüz ki, hər kəsin öz şəxsi düşüncəsi var. Cırıq şalvar geyinən qızlara pis baxmıram. Amma ki, oğlanlara cırıq şalvarı yaraşdırmıram. Özüm də cırıq şalvar geyinməyi sevmirəm”.



**Paytaxt sakini Adəm Pənahəliyev:** “Çox cırıq şalvarla az söküyü, cırığı olan şalvarın arasında fərq var. Ən çox xanımlar çox cırığı olan şalvar geyinirlər. Biz müsəlman ölkəsində yaşayırıq. Namaz qılan, ibadət edənlər var. Ona görə də, çox cırığı olan şalvar geyinmək, çox qısa geyinmək düzgün deyil”.



**Paytaxt sakini Sona Məmmədova:** “Cırıq şalvar geyinənlərə çox pis baxıram. Özlərini iyrənc yerə qoyublar. Cırıq şalvar geyinənləri görəndə 5 metr uzağa qaçıram. Ailə üzvlərim də cırıq şalvar geyinmir”.



**Paytaxt sakini Yavər Əlizadə:** “Cırıq şalvar dəbdədir. Hər kəs də geyinir. Cırıq şalvar geyinənlərə pis baxmıram. Amma mən geyinmirəm”.

***Arzu Qurbanzadə***

## Yaponiyanın nüfuzlu “Nikkei” qəzeti Azərbaycanın uğurlarından bəhs edən məqalə yayıb


30年間で達成された目標

ギュルセル イスマイルザーデ 駐日アゼルバイジャン共和国特命全権大使

駐日アゼルバイジャン共和国大使館

〒152-0021 東京都目黒区東が丘1丁目19-15

広告

Yaponiyanın “Nikkei” (“Nihon Keizai Shimbun”) qəzeti Azərbaycanın bu ölkədəki səfiri Gürsel İsmayılzadənin “30 ildə əldə edilmiş nailiyyətlər” sərlövhəli məqaləsini dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə cari ildə Azərbaycanın müstəqilliyinin bərpa olunmasının 30-cu ildönümünün qeyd edildiyi bildirilir. Müstəqilliyin bərpasından ötən dövrdə Azərbaycan xalqının çoxsaylı çətinliklərin öhdəsindən layiqincə gəldiyi, müstəqillik üçün qurbanlar verdiyi, qonşusu işğalçı Ermənistanla iki qanlı müharibə yaşadığı qeyd edilir. Bildirilir ki, bütün bu çətinliklərə baxmayaraq, ölkəmiz sürətli iqtisadi inkişafa nail olub, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Qələbə nəticəsində Azərbaycan əraziləri işğaldan azad edilib və hazırda bu torpaqlarda böyük bərpa və yenidənqurma işlərinə başlanılıb.

Azərbaycanın zəngin təbii ehtiyatlara malik ölkə olaraq regionun enerji siyasətində aparıcı rol oynadığı, Avropanın enerji təhlükəsizliyinə töhfə verən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihələri haqqında da oxuculara məlumat verilir. Eyni zamanda, qeyri-neft sahələrinin inkişafının və iqtisadiyyatın şaxələndirilməsinin Azərbaycan hökumətinin prioritetlərindən olduğu vurğulanır.

Yazıda Azərbaycanın dünyada özünü güclü və təhlükəsiz tranzit qovşağı kimi təsdiqləməsinə də diqqət çəkilib. Mərkəzi Asiyadan Xəzər dənizinə və oradan Qafqaza uzanan nəqliyyat marşrutlarının getdikcə daha çox əhəmiyyət kəsb etdiyi, Azərbaycanın bu marşrutlarda, o cümlədən Şimal-Cənub dəhlizində böyük rol oynadığı qeyd edilir.

Məqalədə 2020-ci ilin Azərbaycan üçün böyük Qələbə ili olduğu da vurğulanır. Ermənistan ordusu tərəfindən 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizin 2020-ci il sentyabrın sonlarında başlayan Vətən müharibəsi nəticəsində qısa müddətdə azad olunduğu qeyd edilir. Vurğulanır ki, 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli Bəyanata əsasən, 30 illik münaqişəyə son qoyulub.

Həmçinin bildirilir ki, bu Bəyanat bölgədə yeni reallıq və əməkdaşlıq üçün yeni çərçivə yaradır. Səfir Azərbaycan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən Zəngəzur dəhlizinin açılması məsələsinə toxunaraq, dəhlizin təkcə respublikamız üçün deyil, həm də region ölkələri üçün səmərəli iqtisadi şərait yaradacağını qeyd edir.

Yazıda işğaldan azad edilən ərazilərdə bərpa və yenidənqurma mərhələsinə başlanıldığı, bunun regionun inkişafına və əməkdaşlığın genişlənməsinə təkan verdiyi bildirilir. Yeni və perspektivli reallıqlardan faydalanan Azərbaycanın azad edilmiş ərazilərdə tərəfdaşları ilə birlikdə bərpa işlərinə başladığı diqqətə çatdırılır.

Qeyd edək ki, “Nikkei” Yaponiyanın iqtisadi sahədə ən aparıcı qəzetlərindən biridir və geniş oxucu auditoriyasına malikdir. Bu qəzetin gündəlik tirajı 3 milyon nüsxədir.

# Azərbaycan gücünü dünyaya nümayiş etdirdi!

***“Ikinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu tarix Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Bu, ədalətin təntənəsi idi. Bu, qürurun təntənəsi idi, milli ləyaqətin təntənəsi idi, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi idi”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə “Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündə nitq söyləyərkən bildirib.***



İyirmi birinci yüzilliyin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında əsas şərtlənirici amil oldu. Təbii ki, ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və ordumuzun güclənməsi nəticəsində Azərbaycan Vətən müharibəsində döyüş meydanında qalib ölkə olduğunu göstərə bildi. Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizlədi və üçrəngli bayrağımız yolumuzu gözləyən torpaqlarımızda dalğalandı. Bu gün bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun dünyanın qabaqcıl ölkələri sırasında adı çəkilir.

Cənab İlham Əliyevin nitqində qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim imkanlarımızı bütün dünyaya göstərdi: “Hətta bu gün mənə verilən məlumata görə, bəzi aparıcı Qərb mətbu orqanlarında, analitik dərgilərdə belə bir fikir ortalığa atılıb ki, hətta dünyanın aparıcı ölkəsi bizim qarşımızda olsaydı, onların da bizim qabağımızda heç bir şansı olmayacaqdı. Yəni, bu, onu göstərir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Mən bunu dəfələrlə deyirdim, hərbçilərlə görüşlər əsnasında, digər tədbirlərdə deyirdim, bu gün biz elə bir güclü ordu yaratmışıq ki, istənilən vəzifəni icra edə bilərik”.

Bu gün güclü Azərbaycan Ordusunun qələbəsi köçkünlərin doğma yurdlarına qayıtmasına səbəbdir. 44 günlük Vətən müharibədə dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini görmüş oldu. Müharibə dövründə ermənilərin mülki, dinc insanları hədəfə alınması, yaşayış yerlərinin dağıdılması dünyanın müxtəlif yerlərindən gəlmiş media nümayəndələrinin diqqətində oldu və yayımlanan reportajlarda ermənilərin törətdikləri hər bir vəhşilik dünyaya nümayiş etdirildi.



### “BİZ BÜTÜN GÜCÜMÜZÜ SƏFƏRBƏR EDİB BU MÜHARİBƏDƏ QƏLƏBƏ QAZANARAQ DÜŞMƏNİ TORPAQLARIMIZDAN QOVDUQ”

Əlbəttə ki, xalqın öz Prezidenti ətrafında bir yumruq olaraq birləşməsi tarixi qələbəmizin əldə olunmasına səbəb oldu. Bu, Azərbaycanın siyasi-diplomatik qələbəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan tərəfindən yüksək dəqiqliklə və vaxtında edilən siyasi-diplomatik gedişlər tariximizə yeni səhifə əlavə etdi. Qələbə tarixini yazdı. “Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq”, deyən Azərbaycan Prezidenti bildirib ki, düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi.



Artıq müharibənin başa çatmasından 7 ay ötür. İşğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Bildiyimiz kimi, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa işinə star verib, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırır. “Baxın, müharibədən cəmi 7 ay keçib, nə qədər böyük işlər görmüşük” deyən dövlət başçısı diqqətə çəkib ki, bizdə bu hazırlıq olmasaydı, biz bunu edə bilməzdik: “İndi nə qədər vəsaitin olursa-olsun, əgər sənin texniki imkanın yoxdursa, kadr potensialın yoxdursa, infrastruktur layihələri vaxtında icra edilməyibsə, bunların heç yüzdəbirini edə bilməzsən. Amma bu gün misli görünməmiş bərpa işləri aparılır. Nəyin hesabına? Məhz hazırlıq hesabına. Ona görə biz güclü dövlət yaratmışıq, mən son illərdə dəfələrlə demişdim və bax, həyat mənim sözümü təsdiqlədi ki, bugünkü Azərbaycan bütün tarix boyunca ən qüdrətli Azərbaycandır və çoxəsrlik tarixində heç vaxt Azərbaycan indiki qədər güclü olmamışdır”.

### “GÜN GƏLƏCƏK, BİZ ŞUŞADA BAX BU GÖVHƏRAĞA MƏSCİDİNİ BƏRPA EDƏCƏYİK”

Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunun nümayişi oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür. Əlbəttə ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. “2016-cı ilin Aprel döyüşləri onlara vurulan ciddi zərbə idi”, deyən Cənab Prezident onu da bildirib ki, biz Aprel döyüşlərindən sonra “Böyük Qayıdış”ın ilk təzahürü olan Cocuq Mərcanlı kəndini bərpa etdik: “Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzərini inşa edərkən və onu açarkən Mən deyirdim ki, gün gələcək, biz Şuşada bax bu Gövhərağa məscidini bərpa edəcəyik”. Həmin zaman yetişib. Bu gün Heydər Əliyev Fondu Şuşada Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin bərpa-təmir işlərini aparır. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Ermənistanın Şuşanı işğalda saxladığı dövrdə bir çox tarixi-mədəni abidələrlə yanaşı, bu məscidlər də vandalizmə məruz qalıb. Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilib, minarələrinin dekoru zədələnib, örtükləri və s. dağıdılıb.Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı imkan verəcək ki, tezliklə işğaldan azad olunan ərazilərimiz yeni və müasir məkana çevriləcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sülh razılaşması üçün Kreml Ermənistana təsir edəcək



### Yuri Mavaşev: “Destruktiv elementlərə yol açılmamalıdır”

Bəlli olduğu kimi, Türkiyədə Rusiya və Türkiyə XİN rəhbərləri - Sergey Lavrovla Mövlud Çavuşoğlunun görüşləri keçirilib. Bu görüşdə əsasən, Cənubi Qafqaz regionu, həmçinin Qarabağla bağlı məsələlərə toxunulub. XİN rəhbərlərinin rəsmi görüşlərinin protokol qaydaları çərçivəsindən çıxmaqla qalstuksuz keçirilməsi isə tərəflərin qarşılıqlı səmimiyyətinin göstəricisi olaraq qiymətləndirilə bilər.

Bundan əlavə, Türkiyədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv dövlətlərin XİN rəhbərləri şurasının da növbəti iclası keçirilib. İclasda çıxış edən Azərbaycanın XİN rəhbəri Ceyhun Bayramov növbəti dəfə Ermənistanla münasibətlərin normallaşdırılması marağından danışıb və bunun üçün ölkələrin suverenliklərinin, ərazi bütövlüyünün tanınmasının, beynəlxalq səviyyədə toxunulmazlığının vacibliyi barədə fikirərini bəyan edib.

### Üçtərəfli bəyanatda RF-nın prezidenti Vladimir Putinin də imzası mövcuddur

O, eyni zamanda xatırladıb ki, üçtərəfli bəyanatın realizə olunması əhəmiyyətlidir. Bu cür yanaşma Rusiya üçün də mühümdür, çünki üçtərəfli bəyanatda RF-nın prezidenti Vladimir Putinin də imzası mövcuddur.

Təbii ki, Türkiyə tərəfi də həmin cəhətdən çıxış edir və Ermənistanın sülh müqaviləsinə imza atması vacibliyinin regionun inkişafı üçün əhəmiyyət kəsb etdiyini qeyd edir. Belə ki, bu, həm də nəqliyyat dəhlizlərinin açılması baxımından nəzərdə tutulan işləri asanlaşdırır.

Yeri gəlmişkən, nəqliyyat dəhlizlərinin blokadadan çıxarılması barəsində RF XİN rəhbəri Sergey Lavrov da danışıb. O, regionda çoxplanlı iqtisadi əməkdaşlığın irəlilməsi barədə fikir bildirib, ölkələrin, xüsusilə Türkiyə və Rusiyanın qonşu dövlətlər olaraq səmərəli fəaliyyətlərinə toxunub.

Güclü erməni lobbisi Rusiyanın siyasi sisteminə çoxdan və dərin şəkildə nüfuz edib

SIA xəbər verir ki, Rusiyanın müasir Türkiyənin öyrənilməsi Mərkəzinin direktoru Yuri Mavaşev sözügedən proseslər barədə analitik şərhini verib. Onun rusdilli caliber informasiya analitik mərkəzinə verdiyi şərhində bildirilir ki, Qarabağ məsələsində Moskva ilə Ankaranın partnyor olmaları ətrafında verilən suallar Rusiyadakı siyasi güclərin münasibətindən də asılıdır. “Yaxşı məlumdur ki, bizim ölkədə kifayət qədər güclü erməni lobbisi var və onlar ölkənin siyasi sisteminə çoxdan və dərin şəkildə nüfuz edib”, deyən Mavaşev qeyd edib ki, əsasən, siyasi güc mövqelərində liderlər dayanırlar və bəzi siyasətçilər erməni lobbisi ilə yaxın münasibətdədirlər: “Bu kontekstdə həlledici məsələ Zəngəzur dəhlizinin açılışı, həmçinin, regionda dəmir yollarının blokadadan çıxarılması perspektividir. Və mənim anlamımda burada həm rus, həm də türk tərəfləri maraqlıdırlar”.

SİYASİ ŞƏRH

### Rusiya prezidenti Vladimir Putin üçün Bakının mövqeyi qəbuledilləndir və bəzi istiqamətlərdən isə, hətta əsaslıdır

“Nəqliyyat dəhlizlərinin açılması istiqamətində razılaşmanın əldə edilməsi üçün Ermənistana birgə təzyiq mümkünlüyü mümkündürmü?”, sualını da cavablandıran müasir Türkiyənin öyrənilməsi Mərkəzinin direktoru hesab edir ki, Rusiya prezidenti Vladimir Putin üçün Bakının mövqeyi qəbuledilləndir və bəzi istiqamətlərdən isə hətta əsaslıdır: “Sülh razılaşmasının əldə olunması üçün Kremlin Ermənistan rəhbərliyinə təsir edəcəyini istisna etmirəm. Hər kəsə aydındır ki, bu, həm sülh üçün, həm də regionun bütün ölkələri üçün həyati əhəmiyyətlidir. Bu müharibədə yağlı nöqtənin qoyulması vacibdir. Hələlik, bu, nöqtə və vergüldür”.

### Regiondan kənar oyunçuların təsirləri olmamalıdır

Mərkəz direktoru bildirib ki, istənilən halda Ermənistandakı seçkilərin nəticəsi və Nikol Paşinyanın partiyasının qalib gəlməsi və onun özü, Şuşa bəyannaməsi, eləcə də Bakının İrəvanla sülh müqaviləsi imzalamağa hazır olduğunu nümayiş etdirməsi Cənubi Qafqazı keyfiyyətli şəkildə dəyişir.

“Bütün sağlam qüvvələr konstruktivlik mənasında bu situasiyadan yararlanmalıdırlar ki, destruktiv elementlərə yol açılmasın. Xüsusilə, söhbət regiondan kənar oyunçuların təsirlərindən gedir”, Yuri Mavaşev deyib.

*Rövşən RƏSULOV*




# Ağahüseyn Hüseynovun 80 illik yubileyi qeyd edilib

***Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə “Bakı” və “Baku” qəzetlərinin baş redaktoru, əməkdar jurnalist Ağahüseyn Hüseynovun 80 illik yubileyinə həsr olunmuş toplantı təşkil olunub.***

Tədbiri giriş sözü ilə MŞ sədri Əflatun Amaşov açaraq bildirib ki, rəhbərlik etdiyi qurum ömrünü-gününü jurnalistikaya həsr etmiş qələm adamları ilə bağlı tədbirləri ənənəyə çevirib. Bu, həm onların həyat yolunun gənc nəslə çatdırılması, həm də bu adamların əməyinə dəyər baxımından son dərəcə önəmlidir. “Əməyinə, şərəfli ömür yoluna qiymət verilməsi mütləq olan həmkarlarımızdan biri də ömrünün 80-ci ilinə qədəm qoymuş respublikanın əməkdar jurnalisti, “Bakı” və “Baku” qəzetlərinin baş redaktoru Ağahüseyn Hüseynovdur. Ağahüseyn müəllim sözün əsl mənasında peşə fədaisidir. O, həm ziyalıdır, publisistdir, həm də qəzet işinin mahir bilicisidir. Ən əsası isə Ağahüseyn müəllim jurnalistikaya misilsiz sədaqəti ilə nümunədir. Onun jurnalist fəaliyyəti, xüsusən də ustad Nəsir İmanquliyevin təməlini qoyduğu “Bakı” və “Baku” qəzetlərindəki əməyi bunu deməyə əsas verir. Ağa müəllimi təbrik edir, ən xoş arzularımı bildirirəm”, - deyən Ə.Amaşov Ağahüseyn Hüseynovu Azərbaycan Mətbuat Şurasının diplomu ilə təltif edib.

Toplantıda çıxış edən edən Azərbaycan Dövlət İnformasiya Agentliyinin baş direktor müavini Dağbəyi İsmayılov yubilyarla “Bakı”-”Baku” qəzetində birgə çalışdığı illərdəki xatirələri yada salıb. O, A.Hüseynovun çox çətin dövrdə adı çəkilən mətbuat orqanlarına rəhbərlik etməyə başladığını, bunun son dərəcə böyük məsuliyyət olduğunu xatırladıb. D.İsmayılov eyni zamanda A.Hüseynovu işinin peşəkarı kimi xarakterizə edən məqamlardan söz açıb.

MŞ-nin Ahıl Jurnalistlər Məclisinin rəhbəri, veteran jurnalist Məzahir Süleymanzadə A.Hüseynovu milli mətbuat tariximizdə layiqli yerə və rola malik “Bakı” və “Baku” qəzetlərinə məxsus ənənələri ləyaqətlə davam etdirən rəhbər olaraq dəyərləndirib. O bildirib ki, A.Hüseynovun peşəyə məsuliyyətli yanaşma tərzi bu nəşrlərin qurucusu və uzun müddət baş redaktoru olmuş, görkəmli jurnalist, publisist və böyük ziyalı Nəsir İmanquliyevin dəst-xətti idi.

“Bakı” və “Baku” qəzetlərinin baş redaktor müavini Ənvər Məşədiyev çıxışında A.Hüseynovu əxz etdiyi, ona irsən keçən həyat fəlsəfəsindəki dürüstlüyü, məsuliyyəti, səmimiliyi, qayğıkeşliyi jurnalistikaya da gətirməyi bacarmış qələm adamı, peşəkar idarəçi kimi səciyyələndirib, xatirələrini bölüşüb.

Uzun müddət “Bakı” və “Baku” qəzetlərində çalışmış, əməkdar jurnalist Zemfira Məhərrəmli bildirib ki, yubilyar peşəsinə könüldən bağlanması ilə seçilib. O, bu bağlantıda rəhbər həssaslığının mühüm amil olduğunu xatırladıb. “Jurnalistikaya qəlbən bağlı adamlar olduqca jurnalistika da olacaq” deyən Z.Məhərrəmli A.Hüseynova təbriklərini çatdırıb.

“Xalq qəzeti”nin əməkdaşı, “Bakı” və “Baku” qəzetlərində jurnalistlik fəaliyyəti keçmiş İlqar Rüstəmov böyük Nəsir İmanquliyevin rəhbərlik etdiyi qəzetləri məktəb adlandırıb. O, bu məktəbin A.Hüseynov kimi məzununun olmasını Azərbaycanın ictimai mühitinin mühüm tapıntısı kimi dəyərləndirib. İ.Hüseynov çıxışında həmçinin Azərbaycan mətbuat tarixində dərin iz qoymuş “Bakı” və “Baku” qəzetlərinin yubileyinin keçirilməsinin vacibliyinə də diqqət yönəldib. O, belə bir tədbirin A.Hüseynov və onun kimi digər peşə fədailərinin əməklərinə də qiymət baxımından mühüm hadisə olacağını dilə gətirib.

Poliqrafçı alim Şəddat Cəfərov da çıxışında A.Hüseynovu işinin peşəkarı olan bütöv şəxsiyyət kimi dəyərləndirib. O, həmçinin yubilyarın həyat yolunun örnək mahiyyət daşıyan müxtəlif cəhətlərindən söz açıb. Veteran jurnalist Fazil Rəhmanzadə A.Hüseynovla birgə “Bakı”-”Baku” qəzetlərində çalışdığı dövrə ekskurs edib, həm peşə xüsusiyyətləri, həm də yubilyarı səciyyələndirən digər cəhətlər üzərində dayanıb. MŞ sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu yubilyar qələm sahibini əsl ziyalı simasına malik, bunu əməli ilə təsdiqləyən jurnalist olaraq dəyərləndirib.

“Bakı” və “Baku” qəzetlərində çalışmış, filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli çıxışında bu qəzetlərin ustad jurnalist Nəsir İmanquliyevin yadigarı olduğunu vurğulayıb. O eyni zamanda bildirib ki, N.İmanquliyev “Bakı”-”Baku” ilə Azərbaycanda ictimai fikrin milli ruh zəminində dirçəldilməsinə, ana dilinin yaşadılmasına böyük töhfələr vermişdi. Bu töhfənin tarixdə daim qalacağına əminliyini vurğulayan Ş.Cəlilli deyib ki, tədbirə toplaşan və ömür yolu sözügedən nəşrlərdə fəaliyyət göstərməklə keçmiş hər bir şəxsin simasında N.İmanquliyev yaradıcılığının peşəyə məsuliyyət, ləyaqət nişanəsi var. Bu nişanəni daşıyanlardan biri də A.Hüseynovdur. Onun əməyi son dərəcə müstəsna əhəmiyyət daşıyır.

Toplantıda çıxış edənlərdən “Xalq qəzeti”nin baş redaktor müavini Tahir Aydınoğlu, veteran jurnalistlər - Mehman Fərzullayev, respublikanın əməkdar jurnalisti Rəhim Hüseynzadə, naşir və publisist Zülfüqar Şahsevənli və başqaları Ağahüseyn Hüseynovu jurnalist peşəsinin təəssübünü çəkən, gördüyü işlə peşəyə dəyər qazandıran həmkar və ziyalı kimi xarakterizə edib, təbriklərini çatdırıb, xoş istək və arzularını dilə gətiriblər.

Sonda çıxış edən A.Hüseynov həyat və fəaliyyətinə verilən yüksək qiymət və dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib.

## Azərbaycanda pandemiya nə vaxt başa çatacaq?




“Bu gün Azərbaycanda vaksinasiya prosesi sürətlə davam edir. Hətta günlük 80 mini keçən peyvəd vurulması imkanımız var və hazırda bunu edirik”. SIA xəbər verir ki, bunu açıqlamasında Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı deyib.

O bildirib ki, hədəf növbəti günlərdə bu rəqəmin 100 minin üzərinə çıxarılmasıdır: “On səkkiz yaşdan yuxarı bütün həmvətənlərimizi vaksinasiya prosesinə həvəslə qoşulmağa dəvət edirəm. Həmişə deyirdik ki, bu xəstəlikdən qorunmağın yeganə yolu peyvənd olunmaqdır. Son elmi-tədqiqatlar da bunu sübut edir. Ona görə də peyvəndlənmənin həcmi genişləndirilməli və ictimai immunitetə daha sürətlə nail olmalıyıq”.

R.Bayramlının sözlərinə görə, vaksinasiya ilə paralel olaraq digər qoruyucu tələblərə də əməl edilməlidir: “Əminəm ki, qeyri-adi hal baş verməsə bu ilin sonuna qədər xəstəliyi pandemiya səviyyəsindən çıxarıb normal həyata yavaş-yavaş qayıda bilərik”.

# MEDİA-nın İKİ SEQMENTLİ maliyyələşdirmə mexanizmi

***Azərbaycanda müstəqil medianın dövlət tərəfindən maliyyələşdirilməsində yeni mərhələ başladı. Mərhələ deyəndə təkcə o nəzərdə tutulmur ki, MEDİA Agentliyinin qərarı ilə yeni 6 aylıq icra müddəti başladı. Həm də bundan daha üstün olaraq o nəzərdə tutulur ki, müstəqil mediamızın 2009-cu ildən başlanmış bütün dövlət maliyyələşmə tarixində ilk dəfə olaraq çap media ilə yanaşı saytların da şəffaf maliyyələşdirilməsinə başlanıldı.***



*Aydın QULİYEV*
*"Bakı Xəbər"*
*qəzetinin Baş redaktoru*

Medianın dövlət maliyyələşmə tarixi ilə az-çox tanışlığı olanlar yaxşı başa düşür ki, MEDİA Agentliyi əslində son on ilin ən mübahisəli və mürəkkəb bir ideyasını həyata keçirdi. Yaxşı xatırlanır ki, 2009-cu ildə qəzetlərin maliyyələşməsi gerçəkləşəndən sonra bu prosesə maraq bir neçə dəfə böyüdü. Azərbaycan mediasının dövlət maliyyəsi altına alınması ilə daxili işlərimizə müdaxilə imkanları minimuma enmiş bəzi məlum xarici dairələrin daxilimizdəki "qol-qıçları" narahat olmağa və dövlət maliyyələşməsinin içində guya "azad mətbuatın boğulmasına yönəlmiş gizli bir platformanın" olduğuna dair hekayələr uydurmağa başladılar. Bu dairələrin qəsdi o idi ki, dövlət çap mediadan əl götürsün və ölkənin çap mediası yenidən müxtəlif əcnəbi maliyyə-ideoloji mərkəzlərin təsiri altına qayıtsın. Bu niyyətlər ölkəmizdə hətta ən sadə əyalət adamlarının da qəbul etdiyi bir ideya ilə darmadağın edildi: "Nəyi pisdir ki? "Fridrix", "Ştirlis" və s. kimi şərti fondlardan pul almaqdansa öz dövlətimizdən almaq daha yaxşı deyilmi?" Şəffaf qaydalarda dövlətdən eyni maliyyəni alan "Səs", "Yeni Azərbaycan", "Zerkalo" "Müsavat", "Bakı-Xəbər" və digər qəzetlərin hamısı haqqında belə deyildi və qəbul edildi.

Qəzetlərin dövlət maliyyələşməsi başlananda ictimai fikrin məşğul olduğu mühüm istiqamətlərdən biri də bu prosesin mütərəqqi, dövlətçilik və peşə inkişaf yönümlü təzahürlərinin təhlili ilə bağlı idi. "Həsən bəy Zərdabinin qəzetinə hansı dövlət pul verirdi?!" kimi ritorik ittihamçı bir tonla dövlət maliyyələşməsinin əhəmiyyətini heçə endirmək istəyənlər də cavablarını sərrast aldılar. Onlara bir cümlə ilə deyildi ki, rəhmətlik Zərdabi milli dövlətin yaradılmasına çalışırdı və istəyirdi, biz isə artıq öz dövlətimizin mediası olduğumuz üçün dövlətdən hər cür dəstək almaq haqqına sahibik. Bununla da "qurbağanın gölünə daş atıldı və bitdi"...

Çap medianın dövlət maliyyələşməsindən az sonra başlanmış və MEDİA Agentliyinin son müsabiqəsinə qədər davam etmiş ən mürəkkəb müzakirə mövzularından biri də onlayn media qurumlarının, yəni internet saytları və xəbər agentliklərinin də dövlətdən şəffaf maliyyə alması oldu. Məsələnin mürəkkəbliyi onda idi ki, proses sona çatdırılmadan illərlə uzandı və ya uzadıldı. Gah deyildi ki, meyar tapılmır, gah yüzlərlə saytın arasında hansını maliyyələşdirək kimi üzücü sualın altında qaldıq, hətta "saytlara pul verilmirsə qəzetlərə niyə verilməlidir" kimi Qobrovalının "qoy məndən də, səndən də olsun" məntiqinə söykənən primitiv mülahizə sahiblərini də gördük. Dəhşətlisi bu idi ki, hətta ucuz "şmotkalar" bazarına da yaxın dura bilməyən bir saytı və ya saytları dalına ataraq rəqiblərini şantaj etmək planları üzərində gizli işləyənlər medianın dövlət maliyyələşmə mexanizminin özünü altdan-altdan hədəfə almaqdan da çəkinmirdilər. Azmı olurdu ki, dövlət media maliyyələşməsinin guya ziyanlı və təhlükəli bir proses olduğunu hətta beynəlxalq auditoriyalarda deyənlərin altından sonradan "bic uşaqlar" çıxırdı - məlum olurdu ki, bu "dostumuzun" hansısa məqsədlə himayə etdiyi "filan" sayta dövlətdən pul qoparmaq səyləri uğursuz nəticələnib. Nəticə alınmayanda isə dövlətin mediaya maliyyə dəstəyinin guya ziyanlı olması barədə təxribatçı ideyalar yaymağa başlayırdı.

İlk əvvəldən də məlum idi ki, təmənna ilə vuruşan belələrinin sırf media ilə bağlı olmayan planları baş tutmayacaq, onlar yarıyolda qalacaqlar, medianın dövlət maliyyələşmə mexanizmi işləməkdə davam edəcək və günlərin birində qəzetlərlə bərabər saytların da şəffaf maliyyələşməsini öz içinə alacaq.

6-sı gündəlik, 12-si həftəlik olmaqla 18 qəzetin və 32 saytın aşkar meyarlarla maliyyələşdirilməsini rəsmiləşdirən MEDİA Agentliyinin bu günkü qərarının hansı yollardan və zəhmətlərdən keçdiyini təsəvvür etmək üçün heç olmasa bunları bilmək yetərlidir. MEDİA Agentliyi məhz dövlət başçısının və onun komandasının iradəsindən çıxış edərək həm çap medianın dövlət maliyyələşməsinin bütün şəraitlərdə davam etdirilməsinin labüdlüyü xəttində dayandı, həm də bir vaxtlar kriteriya və seçim variantlarının axtarışında az qala dalana dirənmiş saytların da maliyyələşdirilməsi prosesinə gerçək məzmun verdi. Elə başa düşülməsin ki, bu vaxta qədər həmin internet resursları heç bir yerdən maliyyə almadan fəaliyyət göstərirdilər. Azərbaycanda hamı bilir ki, dövlətdən maliyyə almadan hansısa media orqanının ayaq üstdə qala bildiyi dövrlərin səhifəsi çoxdan çevrilib və bu günə qədər hər kəs hansısa mənbədən gələn maliyyə ilə fəaliyyət göstərib. Ancaq bəziləri aldığının əvəzində guya media işi ilə məşğul olduğunu göstərməyə çalışsa da əslində aldığını yeyib yatmaqla məşğul oldu, başqaları isə həqiqətən inkişaf edərək müxtəlif yeni forma və məzmunlar kəsb etdi.

Başa düşmək olar ki, ölkədə yüzlərlə "gənc və qocaman" saytların mövcudluğu şəraitində maliyyələşmə üçün 32 saytın seçilməsi müəyyən hallarda mübahisə və suallar doğuracaq. Dünya tarixində ilkin təcrübə olaraq reallığa doğru yol götürən heç bir layihənin ideal kamilliyindən danışmaq mümkün deyil. Həmişə ağıllı və praqmatik düşünən adamlar bunu anlamağa, ilkin layihəni əsasən qəbul etməyə və yalnız sonrakı mərhələlərdə mövcud layihənin əyri-əskiyinin aradan qaldırılması üsuluna üstünlük verib. Yada salaq ki, qəzetlərin dövlət maliyyələşməsi prosesinin özü də çətin mərhələlərdən və mübahisələrdən keçərək indiki halına qədər gəlib çatıb. İndi Agentlik prosesi elə bir həddə gətirib ki, dövlət maliyyələşməsindən kənarda bircə müstəqil qəzet də qalmayıb. Bəlkə hələ bu da qəzetlərin dövlət maliyyələşməsinin ən kamil mexanizmi deyil. Ancaq vacib olan odur ki, qəzetlərin maliyyələşməsi prosesinin dönməz xarakteri təmin edilib və maliyyələşmənin indiki mexanizmi gələcək təkmilləşmələri də özündə ehtiva etmək şərti ilə əsasən doğru variant kimi qəbul edilib.

Eyni təhlil və mülahizələri dövlət maliyyələşmə mexanizminə yenicə qoşulmuş saytlar barədə də demək lazımdır. Qəzetlərin şəffaf maliyyələşməsi bir mərhələ idisə, saytların maliyyələşməsi ikinci mərhələ oldu. Üçüncünü də istisna etmirik. Çox yaxın gələcəkdə onlayn mediadan sonra audio-vizual medianın da rəsmən, dövlət adından və şəffaf şəkildə maliyyələşəcəyini görəcəyik və görməliyik. Çünki Azərbaycan dövlətçiliyinin gücünün iqtisadi, siyasi, hərbi, insani media resurslarının yalnız bir arada olması şərtindən asılı olduğunu praktikada görmüşük. Görmüşük ki, indiki mürəkkəb geosiyasət kombinasiyalarında ancaq öz dövlətinin maliyyəsinə söykənən media güclü ola bilər. Əks halda medianın öz dövlətinə qarşı rupora çevrilə bilmək təhlükəsi daim başının üstündən asılı vəziyyətdə olur. MEDİA-nın bu gün elan etdiyi ikiseqmentli (çap və onlayn media) maliyyələşmə milli medianın məhz dövlətlə birlikdə güclənmək və güclü olmaq konsepsiyasının həyata keçirilməsinə xidmət edir. Audiovizual medianın maliyyələşməsinin də bu prosesin içinə alınması milli medianın dövlətlə birlikdə gücləndirilməsi konsepsiyasına yeni miqyas verəcək...

Nəzərə alaq ki, onsuz da hamı maliyyələşir, formasından asılı olmayaraq bütün media seqmentləri bu prosesin içindədir. Bu gün şəffaf dövlət maliyyələşmə sisteminə ilk ayaq açmış onlayn media qurumları da həmçinin... Etiraf edək ki, dövlət maliyyələşmə sisteminə saytların qoşulması yenicə başlayır, onun şübhəsiz mərhələ-mərhələ davamları olacaq, yeni saytlar sistemə daxil ediləcək, kimlərinsə prosesdən kənarda qoyulacağı da istisna deyil. Ancaq siyahıda sözügedən artma və ya azalmaların sağlam və şəffaf meyarlarla aparılmasına nail olmaq indi hər kəsin əsas hədəfinə çevrilməlidir. Bunun əksinə, bütün prosesi qaralamağın, eynilə qəzetlərin ilk maliyyələşmə mərhələsinə xas yanlış və qərəzli yol seçməyin isə heç bir perspektivi ola bilməz...

MEDİA-nın böyük zəhmətlə ərsəyə gətirdiyi hazırkı ikiseqmentli maliyyələşdirmə mexanizminin həm dövlət, həm informasiya təhlükəsizliyi, həm də medianın öz inkişaf mənafelərinə uyğun olması artıq mübahisə mövzusu deyil. Hamı qəbul edir ki, şəffaf rəsmi maliyyələşmə bir sıra saytların qarşısında yeni inkişaf pilləsi deməkdir. Kimin bu pillədən necə istifadə edəcəyi hər kəsin öz işi olsa da, dövlətdən rəsmi və mötəbər formada maliyyə alışı ilə bəzilərinin "tində -bucaqda" kimlərdənsə pul almağının böyük fərqi var. Hələ onu demirəm ki, "tin pulları"nı alandan sonra ardınca kimlərinsə üstünə yerimək sifarişlərinin icrası nə qədər təhqiramiz olurdu. Bəzilərinin bu təhqiramiz və üzücü icraçılıqdan qurtulması isə razılaşaq ki, "peşə şərəfini" qorumağın ən qısa yolu olacaq. Saytların Agentlik xətti ilə dövlət maliyyələşməsinə keçidi onların daha samballı və mötəbər media qurumlarına çevrilmək imkanlarının genişlənməsi deməkdir. Bu saytların qarşısında dövlət, ictimai və peşə maraqlarının daha yaradıcı şəkildə birləşdirilməsi kimi uzun bir yol başlayır. Bu yol sağdan və soldan bütün oxşar media seqmentlərinin üzünə açıqdır...

# Kağız, yoxsa plastik qablardan istifadə etməli?

***Əhali tərəfindən kağız-karton qabların geniş şəkildə istehlak olunmasının özünəməxsus əhəmiyyəti var. Əslində kağız-karton qablara tələbat günü-gündən artmaqdadır. Buna görə də bu sahənin inkişaf etdirilməsinə ehtiyac var.***

Məlumdur ki, kağız ilk dəfə bizim eranın II əsrində Çində Çay Jun tərəfindən əldə edilib. İlk kağız xammmal bazası kimi ipəkdən, tut ağacının qabığından və s bitki liflərindən istifadə olunub. Kağızın kəşfi böyük inkişafa səbəb olub və beləliklə, bir çox sahə kağızın yaranması ilə meydana gəlib. Hazırda məişətdə ən çox istifadə olunan material kağızdır.

IX-XII əsrlərdə kağız bəzi Avropa ölkələrində ancaq kilsə kitabları yazmaq üçün istifadə olunduğundan o, çox bahalı hesab olunurdu. Lakin zaman keçdikcə kağız-karton mallarının tətbiqi sahəsi genişləndi. Nəticədə müxtəlif tərkibli, təyinatlı, ölçülü, rəngli, formatlı kağız və kartonlar istehsal olundu. İstehlak xüsusiyyətlərinə uyğun olaraq kağızın növü müəyyənləşir. Kağız və kartonlar bir-birindən ərzaq və sənaye malları üçün olanlara görə də fərqlənir. Çünki ərzaqla təmasda olan kağız məmulatları ekoloji cəhətdən daha təmiz və gigiyenik olmalıdır.

Kağız 1m2-nin kütləsi 250 qr-a bərabər olan materialdır. Əsas növlərinə görə 10 sinfə bölünür. Karton da vərəqə materialı olub kağızdan daha çox qalın və ağır olması ilə fərqlənir.

Respublikamıza daxil olan kağız və karton mallarının keyfiyyəti ilk öncə gömrük-keçid məntəqələrində ixtisaslaşdırılmış laboratoriyalarında yoxlanır, sonra onlar respublikanın satış məntəqələrinə buraxılmasına icazə verilir. Yazı kağızlarının, dəftər vərəqələrinin keyfiyyətinə xüsusi diqqət yetirmək lazımdır. Çünki, keyfiyyətli kağızlarda yazılmış yazıları, məlumatları, rəsm albomlarında çəkilmiş rəsmləri daha uzun müddətdə saxlamaq mumkündür. Son zamanlar kağız - karton mallarının istehsalı üçün lazım olan xammalı əldə etmək üçün meşələr çox qırılır. Bunun qarşını almaq üçün kağız istehsalında sintetik liflərdən istifadə olunmağa başlanmışdır. Bu, çox sərfəli qiymətə kağız almağa imkan verir. Kağız və karton tərkibcə bitki liflərindən ibarət olmaqla müəyyən emal proseslərindən keçirilir.



Bəzi növ kağız və kartonların tərkibi mineral, süni və sintetik liflərdən ibarət ola bilər. Kağız və kartonun hazırlanmasında daha çox tətbiq olunan lifli materiallardan iynəyarpaqlı və enliyarpaqlı ağac növlərini misal göstərmək olar. Qeyri - ağac lifli materiallara isə samanı, yabanı bitən qamışları, köhnə kağız tör-töküntülərini və s. misal göstərmək olar.

# Partiya sədrindən sərt təpki: “Bu, siyasi revanş cəhdidir”

***“Müxalifət yönlülərin kütləvi tədbirlər keçirmək, mitinq keçirmək niyyəti barədə sosial şəbəkələrdə olan məlumatlar narahatedicidir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimli deyib.***



Partiya sədri vurğulayıb ki, adətən hərhansı bir dövlətdə, məsələn, ABŞ Vyetnam müharibəsindən sonra bir neçə il şok yaşadı və cəmiyyət orada heç bir etirazını bildirmirdi, öz dövləti ilə həmrəyliyini nümayiş etdirirdi, hətta tənqid edənlər olsa da ki, Vyetnamda müharibə aparılıb, heç kimin ağlına belə gəlmirdi ki, dövləti nədə isə ittiham etsin.

“Məsələ ondan ibarətdir ki, biz müharibə aparmışıq, çox böyük qalibiyyət əldə etmişik, bizim nə qədər üstünlüklərmiz olub, Azərbaycan haqqında dünyada daha çox danışmağa başlayıblar, dünyanın Azərbaycana daha çox ehtiyacı var, bir sıra dövlətlər Azərbaycanı sayır, hörmət edir ölkəmizə. Azərbaycan itgilərinin belə mütləq əksəriyyətinin yerini doldurub. Təsəvvür edin ki, Azərbaycan nə qədər uğurlu siyasət aparıb. Heç bir sosial sifariş olmadığı halda, dövlətimizin bu böyda qalibiyyəti, təntənəsi olduğu halda mitinq nə deməkdir, tələb nədir, nə demək istəyirlər, kim onlara qoşulacaq? Amorf quruluşa malik, sosial bazasını itirmiş müxalifət görünür nə isə təşkil etmək istəyir. Açıq deyək ki, Ali Baş Komandan bunların əlindən bütün konturları da aldı öz qalibiyyəti ilə. Bunlar mənəvi cəhətdən də, siyasi cəhətdən də deqradasiya oldular. Bir kəndin alınmasını arzu edən, deyək ki, bir kəndin alınmamasına görə iqtidarı ittiham edənlər indi yanlış fikirlərə düşürlər, yanlış ittihamlar edirlər.

Mən düşünürəm ki, bu düzgün deyil və cəmiyyətdə olan xırda problemlərdən, sosial problemlərdən, camaatın ola biləcək mümkün çətinliklərindən müxalifətin istifadə eləməsi özünün siyasi revanş cəhdidir. Çünki, partiya olaraq sıradan çıxıblar, “Milli Şura” fəaliyyət göstərə bilmir, özlərini yenidən elə bil ki, təşkil etmək, formalaşdırmaq istəyirlər və bununla da ətraflarında guya kimləri isə toplamaq niyyətindədirlər. Amma hamı yaxşı bilir ki, istər Müsavat olsun, istər AXCP olsun, istərsə də “Milli Şura”, yaxud digərləri olsun, bunlar sosial bazalarını kütləvi şəkildə itiriblər. Mən düşünürəm ki, müxalifətin kütləvi tədbir keçirmək, mitinq keçirmək niyyəti, məqsədi lazımsız və mənasız bir məsələdir”, deyə Tahir Kərimli bildirib.

***İnam Hacıyev***

# “Sədaqət müqaviləsi” imzalayan miqrant nə etməlidir?

***Bu gün rusların etirafına görə, Rusiyanın həqiqətən də miqrantlara böyük ehtiyacı var. Yəni Rusiya miqrantları məmnuniyyətlə qəbul edir. Qeyd edək ki, bu gün şimal qonşumuzun inşaat sahələrində, mənzil-kommunal xidmətlər sistemində, kənd təsərrüfatında ən azı 5 milyona yaxın əmək miqrantına ehtiyacı var.***

Təbii ki, dediyimiz kimi, Rusiya miqrantları qəbul edir, amma burada sual oluna bilər, bu ölkəyə gələn miqrantların hamısı bu ölkənin qanunlarına tabe olurmu? Əslində burada əsas günahı miqrantlarda görmək düzgün olmazdı, çünki bu sıraya miqranta pis təkliflə bulunan işəgötürənlər də daxil edilməlidir.

Qeyd edək ki, bir müddət bundan əvvəl rus səlahiyyətliləri “Sadiqlik müqaviləsi” adlı müqavilə müəyyən ediblər. Rusiya Daxili İşlər Nazirliyindən verilən məlumata görə, yeni “müqavilə” xarici vətəndaşa Rusiyaya giriş, çıxış, qalma (yaşayış) və işləmə qaydaları (tələbləri) barədə məlumat vermək üçün inzibati tədbir kimi istifadə ediləcək.

Beləliklə, “Sədaqət müqaviləsi” imzalayan miqrant, müəyyən edilmiş qaydalara riayət etməməyin nəticələri barədə məlumatlı olduğunu təsdiqləyərək, Rusiyaya zərər verməməyi qəbul edəcək. Bundan əlavə, xarici vətəndaş, müqavilənin şərtlərini pozduğu təqdirdə, ölkədən çıxarılması ilə əlaqəli xərcləri ödəmək öhdəliyi götürəcək.



“Qanun layihəsinə görə, “Sədaqət müqaviləsi”nin imzalanması, Rusiyaya viza əsasında daxil olan xarici vətəndaşlar tərəfindən, eyni zamanda Rusiyaya daxil olmaq üçün müraciət edərkən bunun elektron formada da imzalanması gözlənilir”

Qeyd edək ki, qanun layihəsi, müqavilə imzalandıqdan sonra Rusiyaya vizasız daxil olan xarici vətəndaşlar tərəfindən məcburi dövlət barmaq izi qeydiyyatının aparılmasını da təmin edir.

Beləliklə, Rusiya qanunlarını pozan miqrantlar, artıq məlumatsızlıqlarını əsas gətirərək rus qanunlarını pozduqlarına görə məsuliyyətdən yayına bilməyəcəklər.

***Ağasəf Babayev***







# Ermənistan Azərbaycana qazdığı quyuya özü düşdü

**Rəfiqə**

***Özgəsinə quyu qazan özü düşər və bu quyudan çıxmaq, oradakı çirkabdan təmizlənmək isə daha çətin olur. Doğrudur, Qələbə sevinci və bu yolda itirdiklərimizin göynərtisi ilə yaşasaq da, bu günlərdə ermənilər özləri basdırdıqları minaya özləri düşdülər. Cəsədləri axtaran zaman erməni hərbçiləri özlərinin basdırdıqları minaya düşməklə gorbagor olublar.***

Ermənilər bütün heyvani vəhşiliklərin hamısını edirlər. Ermənin pisinə də lənət, yaxşısına da. Bu 3 il ərzində işğalçı Ermənistanın layiq olduğu cəzanı alacağına inamımızı bir an da itirmədik - “Nə tökərsən qazanına, o da çıxar qaşığına” və “Özgəyə quyu qazan bir gün özü düşər” kəlamlarının hikmətinə bir daha tapındıq. Bu inamımızı babaların “Qisas qiyamətə qalmaz” hökmü daha da gücləndirdi. 30 illik Qarabağ münaqişəsi və müharibəsi Ermənistanın ilk gündən Ali Baş Komandanımız “dəmir yumruğu” gec oldusa da, güc oldu”, 30 ilin torpaq həsrətinə 44 gündə son qoyuldu. İşğalçı ölkənin olmayan muzdlu “ordusu” silahı atıb siçan deşiyi belə tapa bilməyərək, dəmir yumruğun qorxusundan hətta şalvarlarını, layiq olmadıqları papaqlarını qoyaraq qaçdılar. Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin dillər əzbərinə çevrilən, müdrik ata sözləri sırasına yazılan “Qarabağ Azərbaycandır!” və “Bəs nooldu, Paşinyan?” qanadlı ifadələri haqqın-ədalətin qələbəsinin güclü olmasının təsdiqi kimi səslənir. Azərbaycan dövləti, ölkə rəhbərliyi məhz hücum siyasəti nəticəsində qələbələrini qazanır, bundan sonra da qazanacaq, öz doğma xalqı, milləti ilə bir yerdə həmişə olacaq!

Gürcü yazıçısı Serqi Sacayanını dediyi kimi: “Erməni deyilən “millət” peyda olduğu gündən bu günə kimi çaqqal, goreşən olublar. Ermənilər şir deyil, güclü dövlətlərə qulluq göstərən çaqqallardır”.

Bəli, bu poşulyanlar tarixən min ildən artıqdır ki, quyruqlarını qısaraq hürən qorxaq it rolunda çıxış ediblər. Özüdə minsifətlə, yalaqla, qorxaqlıqla, xəyanətkarlıqla sürünüblər, qarşılarına güclü birisi çıxdıqda isə quyruqlarını qısaraq qaçıblar. Ermənistanın “yanları” tək Azərbaycan xalqına qarşı deyil, bütün xalqlara qarşı xəyanətkar olublar. Hətta zaman-zaman iplərini əllərində saxlayan rus xalqına və dövlətinə qarşı da dikləniblər və hər dəfə də ağır şəkildə cəzalandırılıblar. Bir də erməni xalqı Allah-Təala tərəfindən lənətlənmiş bir xalqdır və lənətləndikləri üçün də xain və quduz olublar. Quduzlaşa_quduzlaşa olmayn “papaqlarını”, şalvarlarını, hətta arvad-uşaqlarını belə qoyub qaçırlar. Qoy, onların papaqları həmişə belə başsız qalsın.

Dahilərimiz də bu papaqsız, hətta arvad-uşaqlarının qoyan bu satqın, şərəfsiz, quldur ermənilər haqda deyiblər ki, vücudsuz, şərəfsizdilər.

Azərbaycan Prezidentimizin xalqa müraciətində dediyi dahi fikiri isə dünya tarixində əbədi qalacaq: “İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur!”.

Bəli, iti qovan kimi qovaraq Azərbaycana qazdığı quyuya özləri düşür və bu quyudan çıxmaq, oradakı çirkabdan təmizlənmək isə daha çətin olur və olacaq.

***Xəbər verdiyimiz kimi, iyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib.Ələt Azad İqtisadi Zonasının səlahiyyətli orqanının İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Ələt Azad İqtisadi Zonası Azərbaycana hansı dividentlər vəd edir?

Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının (AİZ) ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Diqqətə çatdırılıb ki, zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının təməlini qoydu. Tezliklə burada böyük bir bir sənaye və beynəlxalq ticarət zonası formalaşacaq.

İqtisadi proqnozlara görə, bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

## Azad iqtisadi zona nə deməkdir?

Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında 18 may 1973-cü il tarixli Kioto Konvensiyasına əsasən azad zona ölkənin ərazisinin elə hissəsini bildirir ki, burada mallar milli gömrük sərhədlərindən kənarda hesab edilir və buna görə də adi gömrük nəzarəti, rüsum və vergilərinə cəlb edilmir. Konvensiyanın imzalanmasından sonra azad iqtisadi zonalar bir çox dövlətlərdə geniş vüsət almağa başlayıb.

Keçən əsrin 90-cı illərində dünyada bir neçə min müxtəlif növlü azad iqtisadi zona fəaliyyət göstərirdi. 2000-ci ildə dünya əmtəə dövriyyəsinin 30 faizi müxtəlif azad iqtisadi zonaların payına düşürdü.

Bəzən elə başa düşülür ki, AİZ-də tamamilə vergi, gömrük rüsumları götürülür. Lakin bu, əslində, belə deyil. Vergilər Nazirliyinin "Azad iqtisadi zonaların yaradılmasına və fəaliyyətinə dair icmal məlumatı"nda qeyd olunur ki, azad ticarət zonaları ölkənin onun milli gömrük məkanından kənarda hesab edilən məhdud əraziləri olsa da, bu o demək deyil bu zonalarda tam azadlıqdır. Belə zonalarda mallar gömrük rüsumlarından, idxal vergilərindən və maliyyə nəzarətindən tam azad deyillər, sadəcə onlar xeyli yüngülləşdirilmiş olur.

Beləliklə, məlum olduğu kimi dünyanın bir çox ölkəsində fəaliyyət göstərən belə zonalarda sürətli iqtisadi inkişaf müşahidə olunur. Bunun əsas səbəblərindən biri də odur ki, həmin zonalarda fəaliyyət göstərən şirkətlərə vergi, kömrük və s rüsumlarda böyük güzəştlər verilir, müvafiq infrastruktur yaradılır, beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinə çıxışlar təmin olunur, istehsal, ticarət, idxal-ixrac əməliyyatları üçün real şərait yaradlılır. Azərbaycanda belə zonanın yaradılması üçün imkan var və bu imanlardan istifadə olunacaq.



## Azərbaycanda AİZ-in hansı perspektivləri var?

Ekspertlərin çoxu, Azərbaycanda, xüsusən də Ələt zonasında AİZ yaradılmasını məqsədəuyğun sayırlar. Belə zonaların yaradılmasının əsas şərti onun yerləşdiyi ərazinin normal infrastrukturunun olması və beynəlxalq nəqliyyat dəhlizlərinə rahat çıxışının olmasıdır. Azərbaycanın təbii resursları, coğrafi mövqeyi, nəqliyyat və infrastrukur sistemləri və s imkanları AİZ-lərin təşkil olunması üçün əlverişli şərait yaradır. Burada xarici və yerli investorların cəlb edilməsi üçün güzəştlər əlverişli olmalıdır ki, bunun da olacağı məlumdur.

Qonşu ölkələrlə sıx iqtisadi əlaqələr yaratmaq, dünya ticarət sisteminə çıxmaq üçün belə zonaların böyük əhəmiyyəti var. Bu cür zonalarda iş yerləri də çox olur, məhsul istehsalı və satışı çoxalır.

AİZ-lər iqtisadi sahədə azad rəqabət və sərbəst bazar prinsiplərini özündə ehtiva edir. Bu isə, ölkədə iqtisadi aktivliyi, rəqabət mühitini və azad biznesin inkişafı üçün imkanları artırır.

Belə zonaların fəaliyyətindən dövlətin vergi və gömrük rüsumları əldə edə bilməyəcəyi haqda fikirlərə gəldikdə isə, deməliyik ki, bu, ciddi arqument ola bilməz. Burada dövlət birbaşa deyil, dolayı dividentlər əldə edir. AİZ-lərin mahiyyəti elə bundan ibarətdir. Burda dövlət vergidən, kömrükdən itirilsə də, iqtisadin inkişafın verdiyi xeyir nəinki onları artıqlaması ilə kompensasiya edir, üstəlik dövlət bundan daha çox qazanır.

AİZ-lərin fəaliyyəti ilə bağlı xarici məhsulların bazara rahat və rüsumsuz çıxışının baş verəcəyi və onlarla rəqabətdə yerli istehsalın tənəzzül edəcəyi təhlükəsi haqda fikirlər də əsaslı arqument ola bilməz. AİZ yaradılsa yerli istehsal da xarici istehsalla rəqabətə girməyə və keyfiyyətli məhsul isteh etməyə məcbur olacaq. Hökumət sadəcə bunun üçün lazımi şərait yaratmalıdır.

Ölkələr belə zonaların vasitəsilə xarici investisiyanı, aparıcı şirkətləri cəlb edə bilir, həm də ölkənin ixrac potensialını, tranzit imkanlarını, əhalinin məşğulluğunu və ümumilikdə iqtisadi inkişafı genişləndirə bilir.

## Niyə Ələt?

Müasir dövrdə bir çox ölkələrdə AİZ-lər geniş yayılıb. Məsələn, Çində onlarla belə zonalar var. Bu zonalar əsasən, nəqliyyat qovşaqlarında, dəniz limanlarında təşkil olunur. Azərbaycanda ən ideal yer kimi Ələtin seçilməsi təsadüfi deyil. Ələt qəsəbəsi bu tələblərə cavab verir. Burda iri liman kompleksi, dəmiryol və avtomobil yolları qovşağı var. Buradan həm Böyük İpək yolu, həm də Şimal-Cənub nəqliyyat dəhlizi keçir. Yəni, Avrasiya üzrə həm şərq-qərb, həm şimal-cənub dəhlizləri burada kəsişir.

Bu zonaların yubanmasının səbəblərindən biri də şəraitlə bağlıdır, yəni əsas şərt hökumətin orda yüksək səviyyədə infrastruktur yaratmasıdır. Ancaq ixracın təşviqi üçün vergi dərəcəsi cüzi nəzərdə tutulmuş olsa da, dövlət burdan çox itirmir. Əvəzində ölkəyə yeni texnologiyalar gəlir, məhsul bolluğu yaranır, iş yerləri artır və s. Dolayı yolla dövlət xeyli qazanır.

AİZ-lərin yaradılması üçün digər optimal məkanlara gəldikdə isə, deyə bilərik ki, gələcəkdə İran, Rusiya və Gürcüstan sərhədlərində də analoji zonalar yaratmaq olar. Bununla dövlət həmin bölgələrin inkişafını da təmin etmiş olar.

Ələt azad iqtisadi zonası ilk təcrübədir. Burda uğur qazanılmaası, belə zonaların qeyd etdiyimiz ərazilərdə də yaradılmasını stimullaşdıracaq.

## AİZ-lərin effektivliyi: uğur nədən asılıdır?

Bununla yanaşı onu da deməliyik ki, azad iqtisadi zonalar heç də hər yerdə effekt verməyib. Dünyanın demək olar ki bütün ölkələri azad iqtisadi zonaların yaradılmasına çalışırlar. Ancaq bəzi ölkələrdə bu praktiki nəticəsini vermir. Bu da o səbəbdəndir ki, həmin ölkələr buna ciddi hazırlaşmayıblar. Bir sıra ölkələr isə məhz belə zonaların yaranmasından sonra inkişaf etməyə başlayıb.

Əlbəttə, şübhə yoxdur ki, Azərbaycanda bu seçim edilərkən dünya təcrübəsi diqqətlə öyrənilib, müvafiq qiymətləndirmə aparılıb, potensial və pesrpektivlər hesablanıb, proqnozlar hazırlanıb. Azərbaycanda bu layihənin reallaşdırılması üçün yerli xüsusiyyətlər nəzərə alınıb, bu layihələri uğurla həyata keçirən ölkələrin təcrübəsi öyrənilib və müvafiq nəticələr çıxarılıb.

Beləliklə, əminliklə demək olar ki, bu layihənin həyata keçirilməsi ümumilikdə ölkənin iqtisadi inkişafına müsbət təsir edəcək. Belə zonalara həm də xarici investorlar tərəfindən böyük investisiyalar qoyulur. Yerli investorlar da fəal iştirak edir. Dolayısı yolla həm yerli sahibkarlar, həm əhali, həm də büdcə bundan qazanır. Bu həm də ölkədə qeyri-neft sektorunun inkişafına və beynəlxalq ticarət imkanlarımızın genişlənməsinə gətirib çıxaracaq.

Təbii ki, dövlət bu zonanın təşkili üçün müəyyən şərait yaradacaq və bu zaman bir qədər xərclər də ola bilər. Lakin belə zonaların yaradılması üçün dövlət büdcəsindən o qədər də çox vəsaitlər tələb olunmur. Yalnız investorların qoyduğu kapital hesabına belə zonalar yaranır və inkişaf edir. Onlar invsetisiya qoyurlar və xüsusi güzəştlər nəticəsində qoyduqları sərmayəni qısa zamanda çıxarırlar.

## ƏLƏT AİZ hansı dividentlər gətirə bilər?

AİZ-in yaradılmasının iqtisadi, ticari, kommunikasiya sahələrinin inkişafını təmin etməklə yanaşı həm də digər sahələrdə faydaları var. Belə zonalarda turizm sektoru daha çox inkişaf edir. Bundan başqa, ərazi abadlaşır, inkişaf edir.

Əksər dövlətlər bu tip zonalarda istehsal müəssisələri yaradır və xarici sərmayə cəlb edib iqtisadi inkişafa nail olurlar. Ələtdə də sənaye zonası var və bunun daha da inkişafı mümkün olacaq. Nəticədə, ölkədə məhsul istehsalı, bolluq yaranacaq. Bu da bəzi məhsullar üzrə idxaldan asılılığı azaldacaq, üstəlik ixracımızı artıracaq.

Məsələnin sosial tərəfi də vacibdir. Burada yüz minlərlə iş yeri yaradıla bilər. Bu regionda məşğulluq problem həllini tapa bilər. Bu zonadakı obyektlərə xidmət göstərən, zəruri tələbat məhsulları ilə təmin edən yaxın qəsəbə və kədnlərin əhalinin gəlirləri artra bilər.

Ümumiyyətlə, Ələt Azad İqtisadi Zonasının yaradılmasının Azərbaycana böyük siyasi, iqtisadi və sosial dividentlər verəcəyinə şübhə yoxdur. Bu, ölkəmizin beynəlxalq nüfuzunu artıracaq, dövlətimizin gəlirlərini yüksəldəcək və regionun sənaye və ticarət mərkəzinə çevirəcək. Biz bu yazıda ədlə ediləcək dividentlərin hamısını qeyd etmədik, qalanlarını gələcək göstərəcək.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

3 iyul

# DSX-nin "Süvarilər" dəstəsinin təqdimatında Qarabağ atları "Royal Windsor Horse Show" adlı tədbirdə nümayiş etdirilib

**Dövlət Sərhəd Xidmətinin (DSX) "Süvarilər" dəstəsinin təqdimatında Qarabağ atları "Royal Windsor Horse Show" adlı tədbirdə nümayiş etdirilib. Tədbirdə iştirak Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı və "Kapital Bank"ın dəstəyi ilə baş tutub.**



ARAF-dan AZ?RTAC-a bildiriblər ki, Britaniya Kraliçası II Elizabetin doğum günü ərəfəsində təşkil olunan tədbirdə "Xarı Bülbül" adı ilə təqdim olunan xüsusi proqram yarış izləyiciləri tərəfindən böyük maraqla qarşılanıb. Azərbaycanın Əməkdar artisti Nicat Kazımovun rejissorluq etdiyi proqramda Qarabağ atlarının belində nümunəvi hərəkətlər icra edən Dövlət Sərhəd Xidmətinin 14 süvarisi, xoreoqraf, Azərbaycan Respublikasının Əməkdar artisti Nailə Məmmədzadənin rəhbərliyi ilə "Sərhədçi" rəqs ansamblı və alov püskürən qrup iştirak edib.

Artıq 78 ildir təşkil olunan "Royal Windsor Horse Show" atçılıq tədbirinin ayrılmaz hissəsinə çevrilən Azərbaycan musiqisi, milli rəqsimiz və xüsusilə də milli atçılıq cinsi olan Qarabağ atları britaniyalılar tərəfindən hər zaman olduğu kimi böyük rəğbətlə qarşılanıb. İyulun 4-dək davam edəcək tədbirlərdə Azərbaycan iştirakçılarının ümumilikdə dörd çıxışı nəzərdə tutulub.

# Eynək seçərkən diqqətli olun - həkim aydınlıq gətirdi



***"İnsanlar gün eynəyi seçərkən ilk növbədə şüşənin keyfiyyətinə fikir verməlidirlər. Çünki şüşə maksimum dərəcədə ultrabənövşəyi şüalardan qorumalıdır. Bu da şüşənin sertifikatında öz əksini tapmalıdır". Bu sözləri SIA-ya açıqlamasında həkim oftalmoloq Samirə Hüseynli deyib.***

Onun sözlərinə görə, insanlar eynək alarkən sertifikatlı eynək almalıdırlar: "Sertifikatda da ultrabənövşəyi şüalardan hansı faiz dərəcəsində qurulması göstərilməlidir. Bu 50% maksimum 80% dərəcəsində göstərilməlidir. Ümumiyyətlə ultrabənövşəyi şüaların nə dərəcədə qorumasını göstərən sertifikatı tələb etməlidir. O ki, qaldı şüşələrin seçiminə təbii ki, orqanik şüşə və polaroid yəni polarizə olunmuş şüşələr seçə bilərlər. Polarizə olunmuş şüşələrin satışını təşkil edən optikalarda xüsusi testləri var. Həmin testlərlə eynəyin polarizə olunmuş şüşə olduğunu aşkar etmək olar. Mütləq şüşənin ölçüsünü, çərçivəsini, üz quruluşuna uyğun olub-olmadığını müəyyən etmək lazımdır. Gün eynəyinin çərçivəsi geniş sahədə qorumuş olarsa, bir o qədər göz ətrafı dəri xərçəngi ehtimalını azaltmış olar".

Samirə Hüseynli həmçinin qeyd edib ki, ultrabənövşəyi şüalardan qorunmaq ilk növbədə gözün bülluru və gözün torlu qişası üçün çox önəmlidir: "Əgər, şüşə keyfiyyətsiz olarsa, həmin eynək qara fon yaradaraq bəbəyin daha da genəlməsinə səbəb olur ki, bu da gözün daha çox ultrabənövşəyi şüaları qəbul etməsinə səbəb olur. Ona görə də, insanlar mütləq sertifikatlı ultrabənövşəyi şüalardan qoruyan eynək almalıdırlar. Daha keyfiyyətli mağazalardan almağa üstünlük verməlidirlər, hansılar ki, onlar eynəklə birlikdə sertifikatını da təqdim edirlər. Rəng seçimi edərkən tünd qəhvəyi rəngli, sarı, yaşıl rəngli şüşələrə üstünlük verilməlidir".

**Arzu Qurbanzadə**

# İnsanları oturduğu yerdə niyə yuxu tutur?

## ŞOK FAKTLAR HƏKİM DANIŞDI



"Bildiyimiz kimi, insan orqanizmi bütün gün ərzində fəaliyyət göstərir. Lakin, bədənimizdə olan bütün orqanların dinlənməyə ehtiyacı var. Bu dinlənmək əsasən, yuxu halında, yəni yatarkən mümkün olur. Lakin, bəzən olur ki, insanlarda anormal yuxusuzluq meydana çıxır". Bu sözləri SIA-ya açıqlamasında həkim infeksionist Xatirə Əliyeva deyib.

Onun sözlərinə görə, yuxusuzluğun meydana gəlməsi iki cür olur: "Birincili və ikincili yuxu pozuqluğu. Birincilik ola bilər ki, səbəbi bilinmədən olsun. Yəni, hər hansı bir problem nəticəsində olur. Lakin, elə insanlar var ki, 3-4 saat yuxulamaqla öz problemlərini həll edirlər. İkincili yuxu pozuqluqları isə müxtəlif səbəblərdən olur. Məsələn, stress nəticəsində olan yuxusuzluq. Bu summatik beyin və mərkəzi sinir sisteminin ayrı-ayrı xəstəliklərində müşahidə olunur. Bunlara mədə ağrıları, ayaq və bel nahiyyəsində olan ağrılar, müxtəlif onkoloji problemlər nəticəsində olan ağrılar, depressiya, panikatak aiddir".

Həkim sözlərinə belə davam edib: "Həmçinin, bəzi insanlar var ki, yerini, çarpayısını dəyişib fərqli yerdə yatdıqda və ya işdə, evdə olan müəyyən bir dəyişiklik nəticəsində onlarda yuxusuzluq baş verir. Əgər yuxusuzluq 3-4 gün müddətindən bir həftəyə qədər davam edirsə, belə insanlara nevropatoloqa müraciət etmək məsləhət görülür".

**Ayşən Vəli**

# Bakcell abunəçiləri "Vətəndaş" tipli "Asan İmza" xidmətindən pulsuz istifadə edəcək

bakcell

Bakcell abunəçiləri 1 iyul 2021-ci il tarixindən başlayaraq "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqını ödəməyəcəklər. Bu imkandan 20 iyun 2020-ci il tarixindən xidmətə qoşulan vətəndaşlara yanaşı, qeyd olunan xidməti 1 iyul 2021-ci il tarixindən əldə edən bütün vətəndaşlar yararlana biləcəklər. Xatırladaq ki, "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqı, 2.50 AZN təşkil edirdi. Xüsusilə vurğulanmalıdır ki, "Asan İmza" xidmətini mövcud olan mobil nömrədə aktivləşdirmək olar və yeni nömrənin əldə edilməsinə ehtiyac yoxdur. "Asan İmza" xidmətinin aktivləşdiyi nömrədən istifadə etdikdə, həmin nömrəyə dövlət qurumları və digər elektron xidmət təchizatçılarından birbaşa olaraq, vacib ismarıcları qəbul etmək mümkün olacaq.

Bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqəsi ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada "Asan İmza" xidmətini aktivləşdirərək "Asan İmza" SİM kartını əldə etməlidirlər. Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır. "Asan İmza" xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər.

Qeyd edək ki, "Vətəndaş" tipli "Asan İmza" xidmətini tamamilə ödənişsiz əsaslarla əldə edən abunəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanmaq imkanına malikdirlər.

# Paralimpiyaçımız Serbiyada qızıl medal qazanıb



**Azərbaycan Milli Paralimpiya Komitəsinin güllə atıcılığı idman növü üzrə milli komandasının üzvü Kamran Zeynalov Serbiyanın Novi Sad şəhərində keçirilən Qran-Pridə fərqlənib. Belə ki, təmsilçimiz 10 metr məsafəyə atəşaçma yarışlarında qızıl medal qazanıb.**

**K.Zeynalov "Tokio-2020" Yay Paralimpiya Oyunlarına lisenziya qazanmış idmançıların siyahısındadır.**

## Başsağlığı

Səs Media Qrupun baş redaktoru Bəhruz Quliyev və Media Qrupun bütün kollektivi, əməkdaşımız Rovsən Rəsulova

əmisi Zirəddin Rəsulovun vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**